RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 236 (8259) CÜMƏ AXŞAMI, 24 oktyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# İlham Əliyevin regional inkişaf siyasətinin növbəti uğuru



## 39 şəhər və rayon gələnilki dövlət büdcəsindən dotasiya almayaraq özünü tam maliyyələşdirəcək

"Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi artıq ictimaiyyətə açıqlanıb. Layihəyə əsasən, 2020-ci ildə dövlət büdcəsinin gəlirlərinin 24 milyard 134 milyon 500 min manat, xərclərinin 26 milyard 913 milyon 700 min manat məbləğində olması nəzərdə tutulur. Bu, 2019-cu illə müqayisədə gəlirlər üzrə 4,2 faiz, xərclər üzrə isə 6,8 faiz çoxdur. Yaxın günlərdə layihə və büdcə zərfinə daxil olan digər məsələlər Milli Məclisdə müzakirəyə çıxarılacaq.

### Qeyri-neft gəlirlərinin artırılması diqqət mərkəzində saxlanılacaq

2020-ci ildə ölkədə ÜDM-in real iqtisadi artımı 3 faiz olmaqla 83,3 milyard manat, o cümlədən qeyri-neft ÜDM-in artımı 3,8 faiz olmaqla 54,6 milyard manat proqnozlaşdırılır. 2021-ci ildə qaz emalının kəskin artması nəticəsində isə neft sektorunun artımında da əhəmiyyətli sıçrayış proqnozladırılmaqdadır. Bütövlükdə proqnozlara əsasən, 2023-cü ilə qədər ölkə ÜDM-i 97,7 milyard manata çatacaq. Təbii ki, bu zaman qeyri-neft sektorunun inkişafının təmin edilməsi əsas iqtisadi prioritetlərdən biri olmağa davam edəcək. Ortamüddətli dövrdə ÜDM-in tərkibində qeyri-neft sektorunun payının 66,8 faizə yüksələcəyi proqnozlaşdırılır.

Tədiyə və ticarət balanslarındakı müsbət dinamika, monetar və fiskal siyasətlərin sıx əlaqələndirilmiş şəkildə yürüdülməsi milli valyutanın mübadilə məzənnəsinin cari ildəki kimi sabit qalacağını təmin edəcək. Bu əsasda, 2020-ci il üçün manat ABŞ dolları məzənnəsinin 1,7 manat səviyyəsində qalacaq. Məzənnə sabitliyinin qorunub saxlanılması, o cümlədən inflyasiya səviyyəsinin tənzimlənməsi əhalinin sosial rifah göstəricilərinə müsbət təsir göstərəcək. Proqnozlara əsasən növbəti il və sonrakı üç ildə əhalinin gəlirlərinin real ifadədə orta hesabla 8,3 faiz artaraq 2023-cü ildə 80,3 milyard manata, xərclərinin isə 7,9 faiz artaraq 69,4 milyard manata qədər yüksəlməsi gözlənilir. Cari ildə əhalinin sosial rifahının yüksəldilməsi üçün həyata keçirilmiş tədbirlərin nəticəsində iqtisadiyyatın bütün sahələri üzrə orta aylıq əməkhaqqı səviyyəsinin 2020-ci ildə 15,5 faiz artımı gözlənilir.

Gələn ilin dövlət büdcəsi də bu məsələlər nəzərə alınmaqla tərtib olunub. Makroiqtisadi sabitliyin qorunması məqsədilə fiskal və monetar siyasətlərin əlaqələndirilməsinin gücləndirilməsi 2020-ci ildə büdcə siyasətinin əsas istiqamətlərindən biri kimi qalacaqdır. Bu əsasda, büdcə xərclərinin pul proqramının parametrlərinə uyğun şəkildə tənzimlənməsi istiqamətində tədbirlər davam etdiriləcək. Qlobal enerji qiymətlərinin volatilliyi fonunda iqtisadiyyatın neft sektorundan asılılığının azaldılması hədəflərinə uyğun olaraq, büdcənin qeyri-neft gəlirlərinin artırılması da gəlir siyasətinin əsas istiqamətlərindən biri olacaq. Bu əsasda, qeyri-rəsmi məşğulluğun səviyyəsinin azaldılması və şəffaflığın artırılması istiqamətində tədbirlər davam etdiriləcək, vergitutma bazası genişləndiriləcək, vergi inzibatçılığı təkmilləşdiriləcək.

### Büdcə xərcləri inkişafa və rifaha xidmət edəcək

2020-ci il və ortamüddətli dövrdə Azərbaycan Respublikasının milli iqtisadiyyat və iqtisadiyyatın başlıca sektorları üzrə Strateji Yol Xəritələrinin icrası, o cümlədən dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməsi nəzərdə tutulmuş dövlət proqramlarının və tədbirlərinin maliyyələşdirilməsi üzrə tədbirlər büdcə xərclərinin əsas istiqamətlərindən biri olacaq. Ənənəvi olaraq büdcənin sosialyönümlülüyü təmin ediləcəkdir. Bu əsasda, əməyin ödənişi, təqaüdlər və sosial müavinətlər, o cümlədən əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin möhkəmləndirilməsi üzrə maliyyə təminatının yaradılması prioritet xərc istiqamətlərindən olacaq. Ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin təmin edilməsi, xüsusi müdafiə xarakterli layihələr və tədbirlər üçün maliyyə təminatının yaradılması 2020-ci il və ortamüddətli dövrdə də davam etdiriləcək.

Ardı 5-ci səh.

# Prezident İlham Əliyev Ramiz Mehdiyevi qəbul edib və ona "Heydər Əliyev" ordenini təqdim edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Ramiz Mehdiyevi qəbul edib və ona "Heydər Əliyev" ordenini təqdim edib.**

AZƏRTAC xəbər verir ki, **Prezident İlham ƏLİYEV** dedi:

- Hörmətli Ramiz müəllim, siz uzun illərdir ki, müxtəlif məsul vəzifələrdə işləyirsiniz. Həm sovet dönəmində, həm müstəqillik dövründə ölkəmizin inkişafına böyük töhfələr vermisiniz. Təsadüfi deyil ki, Ulu Öndər Heydər Əliyev sizi hələ gənc yaşlarınızda önəmli vəzifələrə təyin etmişdir. Siz yaxşı bilirsiniz ki, Heydər Əliyev kadrların seçilməsində çox tələbkar idi və onun bir sıra çox ciddi meyarları vardı. Sizi gənc yaşlarında önəmli vəzifələrə təyin etmək onu göstərirdi ki, siz buna layiq idiniz. Siz gənc, istedadlı kadr kimi Ulu Öndərin rəhbərliyi ilə həm sovet dönəmində, həm də müstəqillik dövründə işləmisiniz. Xatırlayıram ki, sovet dövründə, 1970-ci illərdə siz Bakımızın əsas rayonu olan, o vaxt 26 Bakı Komissarı adlandırılan, indiki Səbail rayonunun birinci katibi təyin olunmusunuz və bu vəzifədə böyük uğurlar əldə etmisiniz. Ondan sonra Ulu Öndər sizi Mərkəzi Komitəyə dəvət etmişdir və siz təşkilat şöbəsinin rəhbəri idiniz. Bu, Mərkəzi Komitənin bəlkə də ən aparıcı şöbəsi idi. Çünki bu şöbədə kadr hazırlığı məsələləri diqqət mərkəzində idi. Heydər Əliyev Moskvada, Siyasi Büroda işə başlayanda bilirsiniz ki, onun tövsiyəsi ilə siz Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ideologiya üzrə katibi vəzifəsinə təyin olunmusunuz. Bu da çox önəmli vəzifə idi, yəni, ideoloji işlərə rəhbərlik edirdiniz. Təbii ki, Ulu Öndər Heydər Əliyev əsassız olaraq bütün vəzifələrdən çıxarılandan sonra sizi də vəzifədən azad etmişdilər və yalnız Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıdandan sonra o, yenə də sizi dəvət etdi. Bu, böyük bir inamın təzahürü idi. Çünki siz də yaxşı bilirsiniz, mən də yaxşı bilirəm ki, o vaxt Heydər Əliyevin yetişdirdiyi, böyük vəzifələr verdiyi bir çox kadrlar ona sadiq çıxmadılar və o, 1993-cü ildə hakimiyyətə qayıdandan sonra həmin kadrlara etibar etmədi. Bir halda ki, sizi dərhal vəzifəyə təyin edib, onu göstərir ki, o, həm sizə inanırdı, eyni zamanda, xalqımız üçün həmin ağır illərdə siz Ulu Öndərə öz sədaqətinizi saxlamısınız və onun rəhbərliyi altında işlədiyiniz dövr ərzində bunu sübut etmisiniz. Heydər Əliyev tərəfindən Prezident Administrasiyasının rəhbəri vəzifəsinə təyin olunmusunuz və bu çox önəmli və məsul işdə böyük nailiyyətlər əldə etmisiniz. Son 16 il ərzində isə biz birlikdə işləyirik. Deməkolar ki, hər gün əlaqədəyik, gündə bir neçə dəfə təmasdayıq. Ölkəmizin uğurlu, hərtərəfli inkişafında sizin çox böyük və danılmaz rolunuz var. Mənim sizə böyük hörmətim var. Siz həmişə dövlətçiliyi hər şeydən üstün tutmusunuz və bu gün Azərbaycan dövləti inkişaf edir, qarşıda duran bütün vəzifələr icra olunur. Bu vəzifələrin icrasında sizin böyük rolunuz vardır.





Ancaq həyat yerində durmur, artıq yaşınız səksəni keçib və siz də həmişə deyirdiniz ki, biz gərək gəncləri irəli çəkək, gənclərə yol verək, onlar da yetişsinlər ki, bizim inkişafımız uzunmüddətli olsun. Gənclər elə yetişməlidir ki, gələcəkdə onlar ölkəmizi layiqincə idarə edə bilsinlər. Gənclər milli ruhda tərbiyə olunmalıdır. İndi siz də yaxşı bilirsiniz, bu qloballaşma adı altında, demək olar ki, bəzi ölkələrin, xalqların milli mənliyi elə bil, silinmək təhlükəsi ilə üzləşib. Qloballaşma adı altında eyniləşmə gedir, bəzi xalqlara yad olan dəyərlər aşılanır və biz buna müqavimət göstəririk. Biz elə gənclər yetişdirməliyik ki, onlar vətənə, xalqa bağlı olsunlar, müstəqilliyi hər şeydən üstün tutsunlar.

Ardı 2-ci səh.

# R.Ə.Mehdiyevin "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət idarəçiliyi və elmin inkişafı sahəsində səmərəli və uzunmüddətli xüsusi xidmətlərinə görə Ramiz Ənvər oğlu Mehdiyev "Heydər Əliyev" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 oktyabr 2019-cu il*

# Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyul tarixli 779 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının tərkibi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyul tarixli 779 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının tərkibi"nə "Azərbaycan Respublikasının Daxili İşlər naziri;" sözlərindən sonra "Ramiz Ənvər oğlu Mehdiyev;" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 oktyabr 2019-cu il*



# Kənd təsərrüfatına elmi yanaşma öz nəticəsini verir

Kənd təsərrüfatı inkişaf tempinə görə sənaye ilə müqayisədə uzun müddət geridə qalıb. Səbəb sənayedə yeni texnika və texnologiyalardan müntəzəm şəkildə istifadə edilməsi idi. Lakin dünya əhalisinin sürətlə çoxalması kənd təsərrüfatı məhsullarına olan tələbatı da artırdı.

## Bu yolla daha yüksək məhsuldarlığa nail olunur

Bununla bağlı son bir neçə onillik ərzində inkişaf etmiş ölkələrdə kənd təsərrüfatında yeni texnika və texnologiyalardan istifadə etməyə, bu yolla torpaqların sıradan çıxmasının qarşısı alınmağa, məhsuldarlığı yüksək olan yeni toxum növlərinin yaradılmasına başlandı. Nəticədə kənd təsərrüfatı məhsullarının istehsalında torpaqdan az istifadə etməklə daha çox məhsuldarlığa nail olmağın təməli qoyuldu.

Bunu Niderlandın timsalında da görmək olar. Bu ölkənin əkin sahəsi az, torpaqlarının məhsuldarlığı bir çox ölkələrdən aşağı idi. Lakin niderlandlılar yeni texnika və texnologiyalardan istifadə edib, xəstəliklərə dözümlü və daha məhsuldar toxumlar yetişdirir, dünyada kənd təsərrüfatı məhsullarının ixracında yalnız Amerika Birləşmiş Ştatlarından geridə qalır.

Ölkəmizdə həyata keçirilən aqrar islahatların əsas məqsədlərindən biri də kənd təsərrüfatında yeni texnika və texnologiyalardan, daha məhsuldar sortlardan istifadə etməklə yüksək məhsuldarlığa nail olmaqdır.

Ardı 5-ci səh.

# Yeni təyinatlar yeni hədəflərə səmtlənir

**Oktyabrın 15-də Prezident İlham Əliyev keçirdiyi iqtisadi müşavirədə islahatların daha fərqli və daha dərin məzmunda aparılacağını bəyan etmişdir.**

Bu baxımdan iqtisadçılar və müstəqil ekspertlərin müşavirənin bütünlükdə konstruktiv məzmun daşıdığını, qazanılan iqtisadi uğurlardan daha çox perspektivlərin, yeni ideyaların və ölkə iqtisadiyyatında bugünədək diqqətdən kənarda qalan sahələrin və kadr islahatlarının israrla önə çəkildiyini vurğulamaları təsadüfi deyil.

Ekspertlər bu müşavirədən sonra ciddi addımların atılacağını, ölkə iqtisadiyyatına yeni nəfəs gətirən qərarların qəbul ediləcəyini bildirsələr də, onların bir çoxu dövlət başçısının sürətlə sözdən fəaliyyətə keçəcəyini və ən yüksək səviyyədə kadr islahatlarına belə tezliklə start verəcəyini gözləmirdilər. Xəbər verildiyi kimi, Prezident sonuncu müşavirədən bir neçə gün sonra hökumətin yüksəkvəzifəli məmurlarını yaşla bağlı verdikləri istefa ərizləri ilə əlaqədar qəbul etmiş, onların fəliyyətini yüksək dəyərləndirmişdir. Ekspertlərin diqqətindən Prezdentin istefaları qəbul edərkən bu müsbət nümunəyə təqaüd yaşı keçən digər məmurları dəvət etməsi də yayınmadı.

İki gün əvvəlcə dövlət başçısı Şahin Mustafayevi qəbul etmiş və onun uzun illər İqtisadiyyat naziri vəzifəsindəki işindən razı qaldığını, buna görə də onu Baş Nazirin müavini vəzifəsinə təyin etdiyini bildirmişdir.

Ardı 5-ci səh.



# Prezident İlham Əliyev Ramiz Mehdiyevi qəbul edib və ona “Heydər Əliyev” ordenini təqdim edib

Əvvəli 1-ci səh.



Ona görə də gənc kadrların qabağa çəkilməsi onlara imkan verir ki, həm təcrübə toplasınlar, həm də artıq yaşlı kadrlar öz məsləhətlərini verməklə onları düzgün yola istiqamətləndirirlər.

Mən bilirəm ki, siz elmi işlərlə də fəal məşğulsunuz, bir çox böyük elmi əsərlərin müəllifisiniz. Bilirəm, sizin də istəyiniz ondan ibarətdir ki, bundan sonra elmi işlərlə məşğul olasınız. Sizin çox böyük potensialınız var və müəllifi olduğunuz kitablar çox böyük diqqətə və qiymətə layiqdir.

Xalq, dövlət qarşısında göstərdiyiniz xidmətlərə görə mən sizi bu gün dövlətimizin ən ali mükafatı olan “Heydər Əliyev” ordeni ilə təltif edirəm. Siz bilirsiniz ki, bu orden bir çox hallarda xarici dövlət və hökumət başçılarına verilir, hər kəsə yox. Bu orden, doğrudan da, xalqımızın, dövlətimizin dostlarına, ikitərəfli əlaqələrin inkişafında xüsusi rol oynamış dövlət və hökumət başçılarına, ziyalılara, incəsənət xadimlərinə verilir. Ona görə bu ordenin sizə verilməsi, əlbəttə ki, xüsusi məna daşıyır, siz buna layiqsiniz. İlk növbədə, ona görə ki, uzun illər ərzində Ulu Öndər Heydər Əliyevə və dövlətə sədaqətlə xidmət etmisiniz. Ulu Öndərin adını daşıyan bu orden sizə bütün əsaslar olmaq şərtilə verilir. Əminəm ki, siz gələcək fəaliyyətinizdə də ümumi işimizə dəyərli töhfələr verəcəksiniz. İndi isə icazə verin bu ordeni sizə təqdim edim.

Prezident İlham Əliyev “Heydər Əliyev” ordenini Ramiz Mehdiyevə təqdim etdi.

**Ramiz MEHDİYEV** dedi:

- Hörmətli cənab Prezident.

Sizə xüsusi təşəkkür edirəm ki, məni dövlətimizin ən yüksək mükafatı olan “Heydər Əliyev” ordeni ilə təltif etdiniz. Heydər Əliyev Azərbaycan tarixində yaşayıb-yaratmış görkəmli ictimai və siyasi xadimlər sırasında Ümummilli Lider səviyyəsinə yüksəlmiş yeganə şəxsiyyətdir. Onun adına təsis olunmuş bu ali ordenlə təltif olunmaq hər bir dövlət qulluqçusunun, hər bir ictimai və siyasi xadimin arzu etdiyi ali mükafatdır. Bu tarixi məqamı mənə yaşatdığınıza görə bir daha Sizə minnətdarlığımı bildirir, Azərbaycanın inkişafında bundan sonra da yeni nailiyyətlər və uğurlar arzulayıram. Müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu olmuş, xalqımızın qəlbində əbədi məskən salmış Ulu Öndərin xatirəsi saydığım bu ali mükafat mənim həyatda nail olduğum və qazandığım ən böyük mükafatdır. Buna görə Sizə, cənab Prezident, bir daha öz dərin təşəkkürümü bildirirəm.

Sizə məlum olduğu kimi, cənab Prezident, həyatımın əlli dörd ilini dövlət qulluğunda keçirmişəm. Onun 29 ilini Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında yaşamışam. Son 16 ildə isə bilavasitə Sizin rəhbərliyiniz altında çalışmışam. Həyata keçirdiyiniz siyasi-iqtisadi, sosial-mədəni kursun böyük uğurlu nəticələr verdiyinin bilavasitə şahidi olmuşam. Sizin silahdaşınız olaraq çalışmışam ki, tapşırıqlarınızı vaxt itirmədən icra edim. Deyə bilərəm ki, Sizin, cənab Prezident, nadir siyasi şəxsiyyət və görkəmli dövlət rəhbəri kimi fəaliyyətinizi və qiymətinizi gördüyünüz işlər müəyyən edir. Mərd və genişürəkli xalqımız buna böyük qiymət verir.

Son 16 il ərzində Azərbaycan Sizin rəhbərliyinizlə modernləşərək yeni bir keyfiyyət mərhələsinə qədəm qoydu. Ölkənin siyasi, iqtisadi, mədəni həyatı yeniləşərək kökündən dəyişdi. Bu da Azərbaycan xalqının həyat səviyyəsini yüksəltdi, onun problemlərinin böyük qismini həll etdi və dövlətlə xalqı vahid bir platformada birləşdirdi.

Sizin nümayiş etdirdiyiniz praqmatizm, çevik və ağıllı dövlət siyasəti, sistemli və ardıcıl yanaşma ölkəmizin milli maraqlarının təmin olunmasında önəmli rol oynamış və onun müasir inkişafını təmin etmişdir.

Dövlətin idarə olunmasında, milli maraqların qorunmasında nümayiş etdirdiyiniz uzaqgörənlik, prinsipiallıq, daxili siyasətdə təlqin etdiyiniz yüksək idarəçilik, ciddi və humanist yanaşma bir siyasətçi olaraq Sizin həm siyasətinizi, həm də şəxsiyyətinizi xarakterizə edən ali keyfiyyətlərdir. Biz dünya tarixində öz dəstxəti ilə dərin iz buraxmış məşhur dövlət başçılarının simasında müşahidə etdiyimiz bütün əsas və ən yüksək keyfiyyətləri bu 16 il müddətində, möhtərəm cənab Prezident, Sizdə müşahidə etmişik. Tarix elə gətirdi ki, üçüncü minilliyin başlanğıcında Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan dövlətini idarə etmək və gələcəyə aparmaq Sizə nəsib oldu.

Azərbaycanı modernləşdirmək, XXI əsrin çağırışlarının tələblərini nəzərə alaraq, xalqımızı öz ətrafınızda birləşdirmək, dövlətimizi yeni inkişaf mərhələsinə qovuşdurmaq missiyası məhz Sizə nəsib oldu. Bu gün heç kim inkar edə bilməz ki, cənab Prezident, Siz bu ali və tarixi missiyanın öhdəsindən layiqincə gəldiniz. Əgər Ümummilli Lider müstəqil Azərbaycan dövlətinin banisi kimi öz adını tarixə yazdırdısa, Siz müasir və inkişaf etmiş Azərbaycan dövlətinin qurucusu olaraq tarixə düşdünüz.

Böyük dövlət təşkilatçısı olaraq, Siz xalqımızın daxili enerjisini ölkəmizin qarşısında duran vəzifələrin həlli üçün bacarıqla səfərbər edirsiniz. Bu gün Azərbaycan Sizin səylərinizlə inkişaf etmiş ölkələrin siyahısına daxil olubdur.

Çoxşaxəli və uğurlu siyasi fəaliyyətinizin nəticəsi olaraq, Sizin beynəlxalq sahədə çox böyük nüfuzunuz var. Bunu böyük dövlət başçıları qeyd edir, xarici mətbuat və nüfuzlu beynəlxalq qurumların rəhbərləri bildirirlər, Sizi islahatçı Prezident adlandırırlar.

Son 100 ildə Ulu Öndər Heydər Əliyevlə birlikdə Siz Azərbaycan tarixinə düşmüş ən görkəmli siyasi lider sayılırsınız. Azərbaycan vətəndaşları böyük qürur hissi keçirirlər ki, xalqımızın belə siyasi rəhbəri ilə bir dövrdə yaşayırlar.

Siz müstəqil Azərbaycanın dövlət qulluğu sisteminin yeni bir sivil ənənəsini yaratdınız. Bu gün bütün Azərbaycan cəmiyyəti uzun müddət Azərbaycan dövlətçiliyinə xidmət göstərmiş, dövlət qulluğu sistemində məsuliyyətlə və sədaqətlə çalışmış yüksək vəzifəli şəxslərin ölkə Prezidenti tərəfindən hansı hörmət və izzətlə yola salınması prosedurundan danışır. İnanıram ki, bu ənənə gələcəkdə də dövlət-cəmiyyət münasibətlərində öz xoş izlərini buraxacaq. Bu ənənə vəzifəyə təyin olunan insanlar üçün hansı xoş əhvali-ruhiyyəni bəxş edirsə, vəzifəsini başa vurub təqaüdə gedən insanlar üçün də eyni xoş ovqatı aşılayacaqdır. Bu ənənəni yaratdığınız üçün, cənab Prezident, Siz böyük şəxsiyyət kimi bir daha ucaldınız.

Fürsətdən istifadə edib mənim ünvanıma səsləndirdiyiniz bütün xoş sözlərə görə Sizə dərin təşəkkürümü bildirirəm. Sizi əmin etməyi özümə borc bilirəm ki, mən Heydər Əliyevlə və onun davamçısı kimi şəxsən Sizinlə birlikdə çalışmağı həmişə özümə şərəf saymışam. Bu xidmətin məsuliyyətini həmişə dərindən dərk etmişəm. Çalışmışam ki, mənim rəhbərlik etdiyim sahələrdə bütün işlər yürüdülən siyasətə uyğun olsun. Mənim fəaliyyətimdə dövlətçilik prinsipi bütün dövrlərdə ümdə olub. Hesab edirəm ki, harada işləməyimdən asılı olmayaraq, hər an məsuliyyət hissini gözləmişəm, ciddi, tələbkar və təvazökar olmağa çalışmışam. Əlbəttə, hər bir digər məmur kimi, mənim də görə biləcəyim işlərin həddi var və indiyə qədər nəyə nail ola bilmişəmsə, o haqda Siz artıq öz fikirlərinizi bildirdiniz.

Sizi əmin etmək istəyirəm ki, möhtərəm cənab Prezident, bundan sonrakı həyatımda və fəaliyyətimdə də mən həmişə Ümummilli Liderin siyasətini, Sizin həyata keçirdiyiniz siyasi kursu rəhbər tutaraq əlimdən gələni əsirgəməyəcəyəm. Sizin həyata keçirdiyiniz siyasət Azərbaycan dövlətinin inkişafına və xalqımızın firavan, təhlükəsiz həyatının qurulmasına xidmət göstərir. Ona görə də düşünürəm ki, hansı mövqedə fəaliyyət göstərməsindən asılı olmayaraq vətənini sevən hər bir azərbaycanlı bu kursu dəstəkləməlidir, Sizin ətrafınızda olmalıdır və dövlətçiliyə xidmət göstərməlidir. Siz Azərbaycan xalqının, dövlətinin şərəfli Prezidentisiniz. Öz dövlətimizə bütün səylərimizlə xidmət etməliyik və onu qorumalıyıq.

Təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, Ramiz müəllim. Mən də xoş sözlərə görə təşəkkür edirəm. Bir daha mükafat münasibətilə sizi təbrik edirəm.

**Ramiz MEHDİYEV:** Çox sağ olun, cənab Prezident.

## R.Ə.Mehdiyevin Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti vəzifəsinə təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 dekabr tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsi”nin 9.2-ci bəndinə uyğun olaraq **qərara alıram:**

Azərbaycan Milli Elmlər Akademiyasının ümumi yığıncağında Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti seçilmiş Ramiz Ənvər oğlu Mehdiyev bu vəzifəyə təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 oktyabr 2019-cu il*

## M.Ç.Cabbarovun Azərbaycan Respublikasının İqtisadiyyat naziri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mikayıl Çingiz oğlu Cabbarov Azərbaycan Respublikasının İqtisadiyyat naziri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 oktyabr 2019-cu il*

## R.Ə.Mehdiyevin Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Ramiz Ənvər oğlu Mehdiyev Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 oktyabr 2019-cu il*

## M.Ç.Cabbarovun Azərbaycan Respublikasının Vergilər naziri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mikayıl Çingiz oğlu Cabbarov Azərbaycan Respublikasının Vergilər naziri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 oktyabr 2019-cu il*

# Prezident İlham Əliyev Mikayıl Cabbarovu yeni vəzifəyə təyin olunması ilə əlaqədar qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Mikayıl Cabbarovu yeni vəzifəyə - İqtisadiyyat naziri təyin olunması ilə əlaqədar qəbul edib.**

AZƏRTAC xəbər verir ki, **Prezident İlham ƏLİYEV** dedi:

- Mən qərara gəldim ki, sizi İqtisadiyyat naziri vəzifəsinə təyin edim. Siz müxtəlif vəzifələrdə, o cümlədən İqtisadiyyat Nazirliyində nazir müavini vəzifəsində çalışmısınız, Təhsil naziri, Vergilər naziri kimi fəaliyyət göstərmisiniz. Xüsusilə sizin Vergilər naziri kimi fəaliyyətinizi qeyd etməliyəm. Aparılan islahatlar nəticəsində vergilər sistemində şəffaflıq təmin edilir, biznes dairələri üçün vahid qaydalar tətbiq olunur.

Azərbaycanda sahibkarlığın inkişafı üçün vergilər stimulverici rol oynayır və nəticələr də göz qabağındadır. Bu il Vergilər Nazirliyi plandan əlavə təqribən 350 milyon manatdan çox vəsait toplayıb və əlbəttə ki, bu, şəffaflığın təzahürüdür. Təbii ki, bu vəsait bizə bu il çox geniş və ciddi sosial paket icra etmək imkanı verdi. Deyə bilərəm ki, bu sosial təşəbbüsün analoqu bugünə qədər olmamışdır. Dörd milyon iki yüz min insan bu sosial təşəbbüsdən faydalanıb, minimum əməkhaqqı təxminən iki dəfə, minimum pensiya 70 faizdən çox artırılıb. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə biz MDB məkanında birinci yerdəyik, amma orta pensiyanın səviyyəsinə görə üçüncü yerdəyik. Yəni bu, doğrudan da çox böyük sosial təşəbbüsdür. Əlbəttə, əgər bizim maliyyə imkanlarımız olmasaydı, biz bunu edə bilməzdik.

Bütün bunları nəzərə alaraq, mən sizi İqtisadiyyat naziri vəzifəsinə təyin edirəm. Bu, çox məsuliyyətli vəzifədir. Əlbəttə, Azərbaycan iqtisadiyyatının bundan sonra qeyri-neft sektoru hesabına inkişafı bizim əsas prioritetimizdir.

Hələ Ulu Öndər Heydər Əliyev vaxtilə demişdir ki, iqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir. Bu, tam həqiqətdir və bu gün bizim siyasi müstəqilliyimizin təməlində iqtisadi müstəqillik dayanır. Mən bunu öz çıxışlarımda dəfələrlə demişəm. Əgər bizim iqtisadiyyatımız kənar dairələrdən asılı olsaydı, biz uğurlu siyasi kurs icra edə bilməzdik. Bizim siyasi müstəqilliyimizin, o cümlədən xarici siyasətdə apardığımız prinsipial mövqeyin əsas baza prinsipi iqtisadi müstəqilliyimizdir. Mən Prezident kimi ilk illərdən iqtisadi müstəqilliyə nail olmaq üçün çalışmışam, müvafiq göstərişlər vermişəm. Bu gün Azərbaycan iqtisadi baxımdan, o cümlədən siyasi baxımdan heç kimdən, heç bir ölkədən asılı deyil, prinsipial müstəqil siyasət aparır, o siyasət ki Azərbaycan xalqının maraqlarını təmin edir. Azərbaycan xalqının maraqlarını, dövlət maraqlarını bütün beynəlxalq tribunalardan müdafiə etmək üçün əlbəttə ki, bizim iqtisadi imkanımız olmalıdır.

Biz indi dünyada gedən proseslərə diqqətlə baxırıq və görürük ki, hansı ölkələr iqtisadi cəhətdən başqa ölkələrdən, yaxud da beynəlxalq maliyyə qurumlarından asılıdırsa, o ölkələr müstəqil siyasət apara bilməz, o ölkələr bir növ böyük ölkələrin girovuna, alətinə çevrilir. O ölkələrin hökumətlərini bəzi hallarda öz xalqına, öz milli maraqlarına görə istifadə etmək üçün onlara təzyiq edilir və onlar bu təzyiqə davam gətirə bilmir. Bizə də təzyiq göstərilir və mənim Prezident kimi fəaliyyətimin bütün dövrlərində göstərilən təzyiqlə üzləşmişik. Ancaq buna davam gətirə bilmişik, müqavimət göstərmişik, öz sözümüzü demişik və heç bir təzyiq, heç bir hədə-qorxu, heç bir təhdid bizim siyasətimizə təsir edə bilməz. Nə üçün? İlk növbədə, biz xalqın dəstəyinə arxalanırıq. Son müddət ərzində keçirilən rəy sorğuları göstərir ki, bizim hökumətimizə ictimai dəstək nə qədər yüksəkdir. O cümlədən Davos Ümumdünya İqtisadi Forumunun son hesabatında, - mən bunu səsləndirdim, - hakimiyyətə olan inam baxımından biz dünya miqyasında ön sıralardayıq. Ona görə iqtisadi müstəqillik bizim üçün əsas vəzifə olaraq qalır. Buna nail olmaq üçün biz gələcək illərdə çox böyük səylər göstərməliyik.

Bizim iqtisadiyyatımızın əsas hissəsini neft-qaz sektoru təşkil edir. Bu, təbiidir. Bu, demək olar ki, neft-qazla zəngin olan bütün ölkələrdə müşahidə edilən mənzərədir və bu, faktdır. Bəzi hallarda bunu mənfi amil kimi yozurlar. Mən bunu mənfi amil kimi qəbul edə bilmərəm, çünki məhz neft-qaz sektorunun inkişafı hesabına biz böyük infrastruktur layihələri icra etmişik, neft-qaz sektorunun gəlirləri hesabına biz 300 mindən çox köçkünü yerləşdirmişik, biz ordumuzu gücləndirmişik, biz böyük sosial layihələri icra etmişik. Əgər bizdə neft-qaz sektoru olmasaydı, yaxud da ki, bu sektoru inkişaf etdirməsəydik, biz nəyin hesabına inkişaf edəcəkdik? Guya kimsə bizə gəlib arxamı duracaqdı? Hansısa ölkə, yaxud da ki, beynəlxalq maliyyə qurumu bizə köməkmi göstərəcəkdi?

Biz o illəri yaxşı xatırlayırıq, mən yaxşı xatırlayıram. 1990-cı illərdə bizim pulumuz yox idi və biz beynəlxalq maliyyə qurumlarından, böyük dövlətlərdən bir növ asılı idik. Onlar da bəzi hallarda bizə diktə etməyə çalışırdılar. Ona görə iqtisadi müstəqillik mənim siyasətimin ana xəttini təşkil edir. Bu, bizə güc verir, inam verir, xalqımız təhlükəsizlik şəraitində yaşayır və biz ölkə üçün vacib olan bütün layihələri icra edirik.

İndiki dövrü mən şərti olaraq postneft dövrü adlandırardım. Ona görə yox ki, bizim neftimiz tükənir, əksinə, bizim ehtiyatlarımız kifayət qədər yüksəkdir, o cümlədən qaz ehtiyatlarımız 2,6 trilyon kubmetrə bərabərdir. Yeni kontraktlar imzalanıb, kəşfiyyat işləri aparılır və neft-qaz sektorumuz bundan sonra da ölkəmizin həyatında önəmli rol oynayacaq. Ona görə mən indiki dövrü postneft-qaz dövrü adlandırıram ki, bizim siyasətimizdə bu sahə kənara qoyulmalıdır. Bu sahədə nə lazım idisə gördük, həm Bakı-Tbilisi-Ceyhan neft, həm Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, “Cənub qaz dəhlizi” tarixi layihələrdir. Bunları biz görmüşük. İndi bu layihələrin faydasını biz və gələcək nəsillər görəcəklər. Ancaq biz iqtisadi inkişafımızı qeyri-neft sektoru üzərində qurmalıyıq və burada əlbəttə ki, aparıcı rol İqtisadiyyat Nazirliyinin üzərinə düşür. Əminəm ki, İqtisadiyyat naziri kimi siz bu tapşırıqları yerinə yetirəcəksiniz.

Bizim iqtisadiyyatımız dayanıqlı olmalıdır. İndiki iqtisadi artım templəri məni qane etmir. Düzdür, bunun obyektiv səbəbləri var. Hazırda neftin hasilatının bir qədər aşağı düşməsi nəticəsində ümumi daxili məhsulda müəyyən dərəcədə yavaşıma var. Ancaq doqquz ayda ümumi daxili məhsul 2,5 faiz artıb, amma qeyri-neft sektorunda 3,5 faiz. Hesab edirəm ki, bu, pis göstərici deyil. Ancaq bizi qane etmir. Düzdür, kənd təsərrüfatı 7 faizdən çox, qeyri-neft sənayesi 15 faizdən çox artıb. Bu, çox müsbət hallardır. Ancaq biz elə etməliyik ki, bu inkişaf dayanıqlı olsun. Buna nail olmaq üçün bundan sonra da çox ciddi islahatlar aparılmalıdır.

İslahatlara alternativ yoxdur. Mən yeni iqtisadi model haqqında öz andiçmə mərasimimdə fikirlərimi ifadə etmişəm. Əsas konturlar o vaxt müəyyən olunub. Ondan sonra aparılan islahatlar, o cümlədən kadr islahatları bu məqsədi güdür. Kadr islahatları labüddür, bu, qaçılmazdır. Çünki mən bunu demişəm, biz XXI əsrdə köhnə təfəkkürlə uğurlara imza ata bilmərik. Əlbəttə, yeni, savadlı, bilikli, müasir kadrlar, ilk növbədə, Vətənə bağlı olmalıdırlar, hər hansı bir xarici təsirdən azad olmalıdırlar və vətənpərvər olmalıdırlar ki, Vətənin inkişafı üçün öz səylərini göstərə bilsinlər.

Əsas vəzifələr bundan ibarətdir. Deyə bilərəm ki, islahatlar yaxşı nəticələr verir. Bu ilin doqquz ayında 100 mindən çox əmək müqaviləsi qeydiyyata alındı. Yəni bu, nə deməkdir? Yəni bu yüz min insan kölgə iqtisadiyyatında fəaliyyət göstərirdi. Onlar zərflərdə maaş alırdılar. Bəzi hallarda onlara yazılan aşağı maaş reallığı əks etdirmirdi. Bu, bizim iqtisadiyyatımızı təhlükə altına qoyur. Bir də ki, bu insanlar gələcəkdə pensiyaya çıxacaqlar. Bəs onların pensiya haqqı nəyin hesabına hesablanacaq? Ona görə mən, o cümlədən muzdla işləyən vətəndaşlara da üz tutub deyirəm: bu işlərə baş qoşmayın. Əgər hansısa sahibkar sizə tutaq ki, 500 manat maaş verirsə və onun 250 manatını rəsmi qaydada verirsə, siz buna razı olmayın. Çünki sabah pensiya almayacaqsınız. Sosial sığorta problemi olacaq. Biz indi icbari tibbi sığortaya keçirik. Orada da problem yaranacaq. Əlbəttə ki, burada nəzarət daha güclü olmalıdır. Hesab edirəm ki, 100 mindən çox iş yerinin rəsmiləşdirilməsi ilə bu iş yerlərini, o cümlədən o sahibkarların fəaliyyətini biz kölgədən çıxarırıq. Bu iş yerlərinin 80 faizi qeyri-neft sektorunda qeydiyyata alınıb. Hələ ki, ən azı on minlərlə insan indi demək olar ki, bir növ kölgə iqtisadiyyatında fəaliyyət göstərir.

Ona görə bu sahə çox ciddi diqqət tələb edir, çox ciddi addımlar atılmalıdır. Əminəm ki, İqtisadiyyat Nazirliyi bu məsələnin öhdəsindən gələcək. Ümumiyyətlə, bizim iqtisadi inkişafımız bundan sonra da qeyri-neft sektoru hesabına davam etdirilməlidir. Buna nail olmaq üçün son illər böyük işlər görülüb, sənaye zonaları yaradılıb, orada xüsusi vergi rejimi tətbiq olunur. Aqroparklar yaradılıb və orada da məhsuldarlıq daha yüksəkdir. Ancaq bütün bu işləri biz, ilk növbədə, biznesin inkişafı prizmasından həll etməliyik. Biz çox yaxşı bilirik ki, inkişaf etmiş ölkələrdə ümumi daxili məhsulda əsas rolu kiçik və orta sahibkarlar oynayır. Bizdə isə hələ ki, belə deyil. Biz də çalışmalıyıq elə bir şərait yaradaq ki, hər bir istedadlı insan, biznesə meyli, həvəsi olan hər bir insan bizneslə məşğul ola bilsin, məmur təzyiqindən, müdaxiləsindən azad olsun. Sahibkarlara yönəlmiş o çirkin əllər gərək kəsilsin. Bəzi hallarda dövlət məmurları, yerli icra orqanlarının rəhbərləri, nümayəndələri imkan vermirlər, xüsusilə bölgələrdə. Əgər indi kimsə özü üçün bir balaca iş qurursa, gəlib zəli kimi onun bədənindən yapışırlar, qanını sorurlar. Belə adamlara qarşı çox ciddi tədbirlər görüləcəkdir. Hüquq mühafizə orqanları artıq məndən çox ciddi tapşırıq alıblar və siz nazir kimi çalışmalısınız ki, belə hallara yol verilməsin, əgər yol verilərsə, dərhal məni məlumatlandırın. Belə yaramaz məmurlara qarşı ən ciddi sanksiyalar və tədbirlər görüləcəkdir. Ona görə biz sahibkarlara nəfəs verməliyik ki, onlar rahat işləsinlər. Vergidən başqa heç bir ödəniş ola bilməz.

Eyni zamanda, haqsız rəqabət, bu da bizim üçün böyük yaradır. Buna təkan verən dövlət məmurlarıdır, hansıların ki biznes maraqları var. Onlar öz imkanlarından istifadə edərək rəqibləri sıradan çıxarırlar, bəzi hallarda şərləyirlər. Elə şərait yaradırlar ki, onlar məcbur olub ya bizneslərini satsınlar, ya da ki, çıxıb getsinlər. Buna da yol vermək olmaz, heç kimdən çəkinmədən. Mən bilirəm, sizə nazir kimi, xüsusilə Vergilər naziri kimi bəziləri təzyiqlər göstərməyə çalışırdılar ki, bizim biznesimizə dəymə. Mən bilirəm ki, siz onların qarşısında çox mətanətlə çıxış etmişiniz. Mən bunu həmişə dəstəkləmişəm və sizə həmişə dəstək olmuşam. Demişəm ki, heç kimə baxmadan bütün işlər ən yüksək səviyyədə görülməlidir. Heç kim heç bir imtiyaza sahib ola bilməz. Bir imtiyaz var: vergini vermək, Vətənə ləyaqətlə xidmət etmək və pozuntulara yol verməmək.

Ona görə sizin qarşınızda çox böyük vəzifələr dayanır. Ölkə iqtisadiyyatının dayanıqlı inkişafı bizim üçün hazırda əsas prioritet məsələdir. Dediyim kimi, bu, imkan verəcək ki, biz sosial sahəyə daha böyük vəsait ayıraq.

**Nazir Mikayıl CABBAROV:** möhtərəm cənab Prezident, Sizə dərin təşəkkürümü bildirirəm. İlk növbədə, göstərdiyiniz etimada görə təşəkkür edirəm. Məsuliyyətimi tam şəkildə dərk edirəm. Sizin rəhbərliyinizlə indiyə qədər gördüyümüz işlərdə əldə etdiyimiz nailiyyətlər Sizin dəstəyinizin, həmkarlarımın gərgin işinin nəticəsidir. Olan çatışmazlıqlar isə mənim üzərimə düşən məsuliyyətdir.

Fəaliyyətimizə verdiyiniz qiymət mənim üçün ən böyük şərəfdir. Sizin rəhbərliyinizlə, həmkar nazirlik və dövlət təsisatlarımızla birlikdə biz ölkəmizin dayanıqlı və davamlı inkişafının, iqtisadi inkişafının təmin edilməsi üçün Sizin tapşırdığınız prinsiplər əsas götürülməklə fəaliyyət göstərəcəyik. Söz verirəm ki, bu məqsədlər üçün səylərimi əsirgəməyəcəyəm.

İqtisadiyyatımızın rəqabətliliyini daim artırmağı, iqtisadi müstəqilliyimizi daim möhkəmləndirməyi, iqtisadiyyatı inkişaf etdirməyi əsas vəzifəm kimi qəbul edirəm. İnanıram ki, iqtisadiyyatı inkişaf etdirmək dövlət və vətəndaşların gəlirlərinin və imkanlarının artırılmasının yeganə yoludur. Sizin kimi siyasi liderin, möhtərəm cənab Prezident, hökumətində yer tutmaq mənim üçün ən böyük şərəfdir. Bir daha yüksək etimadınıza görə Sizə dərin təşəkkürümü bildirmək istəyirəm.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Sizə uğurlar arzulayıram. Əminəm ki, nəticələr yaxşı olacaq.

# Azərbaycan ilə İran arasında Şimal-Cənub, Cənub-Qərb nəqliyyat dəhlizləri çərçivəsində əməkdaşlıq üçün böyük imkanlar var

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də İran İslam Respublikasının Xarici İşlər naziri Cavad Zərifin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, dövlət başçısı Azərbaycan ilə İran arasında dostluq və mehriban qonşuluq münasibətlərinin olduğunu qeyd edərək, əməkdaşlığımızın mövcud səviyyəsinin məmnunluq doğurduğunu vurğuladı.

Prezident İlham Əliyev ölkələrimiz arasında Şimal-Cənub, Cənub-Qərb nəqliyyat dəhlizləri çərçivəsində əməkdaşlıq üçün böyük imkanların olduğunu bildirdi. Dövlət başçısı Azərbaycan ilə İran arasında iqtisadi-ticari əlaqələrin inkişafında Hökumətlərarası birgə Komissiyanın rolunu qeyd etdi və komissiyanın eyni tərkibdə bundan sonra da fəaliyyətini davam etdirəcəyini vurğuladı.

İran İslam Respublikasının Xarici İşlər naziri Cavad Zərif Prezident Həsən Ruhaninin səmimi salamlarını və xoş arzularını dövlət başçısına çatdırdı. O, Prezident Həsən Ruhaninin Qoşulmama Hərəkatının ölkəmizdə keçiriləcək XVIII Zirvə Görüşündə iştirak etmək üçün yaxın günlərdə Azərbaycana səfər edəcəyini bildirərək səfər çərçivəsində dövlətimizin başçısı ilə görüşünün əlaqələrimizin daha da inkişafına töhfə verəcəyini dedi.

Cavad Zərif Qoşulmama Hərəkatının Bakı Zirvə Görüşünün Azərbaycan tərəfindən yüksək səviyyədə təşkil olunacağına əminliyini ifadə etdi və 2019-2022-ci illərdə ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi uğurla aparacağını dedi.

Prezident İlham Əliyev İran İslam Respublikası Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarının İran Prezidentinə çatdırılmasını xahiş etdi və Qoşulmama Hərəkatının Bakıda keçiriləcək Zirvə Görüşü çərçivəsində Prezident Həsən Ruhani ilə görüşünü məmnuniyyətlə gözlədiyini bildirdi.

# Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri dost və tərəfdaş dövlətlərdir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Xarici İşlər üzrə Dövlət naziri Ənvər Qarqaşın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, qonaq Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Xəlifə bin Zayed Al Nəhyanın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Xəlifə bin Zayed Al Nəhyanın Prezident İlham Əliyevə dərin hörmət və ehtiram bəslədiyini qeyd etdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın sürətli inkişaf yolu ilə getdiyini deyən qonaq bütün bunlara dövlətimizin başçısının yüksək idarəçilik qabiliyyəti və yorulmaz fəaliyyəti nəticəsində nail olunduğunu diqqətə çatdırdı. O, 120 min nəfər BƏƏ vətəndaşının ölkəmizə turizm məqsədilə səfər etdiyini vurğulayaraq Azərbaycanın Birləşmiş Ərəb Əmirliklərinin vətəndaşları üçün mühüm turizm məkanlarından birinə çevrildiyini bildirdi.

Dövlətimizin başçısı Azərbaycanın və Birləşmiş Ərəb Əmirliklərinin dost və tərəfdaş dövlətlər olduğunu qeyd etdi. Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirlikləri rəhbərliyinin ölkənin inkişafı istiqamətində böyük baxışa malik olduğunu, şəhər quruculuğu, infrastruktur və digər meyarlar baxımından BƏƏ-nin nümunəvi inkişafa nail olduğunu dedi. Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Xəlifə bin Zayed Al Nəhyanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə çatdırmağı xahiş etdi.

## A.A.Əli Zadənin 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında elmin inkişafı sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Akif Ağa Mehdi oğlu Əli Zadə 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 oktyabr 2019-cu il*

## L.S.Duxovnayanın "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda teatr sənətinin inkişafındakı xidmətlərinə görə Lyudmila Semyonovna Duxovnaya "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 oktyabr 2019-cu il*

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Ölkənin davamlı inkişafının təmin edilməsi məqsədi ilə aparılan sosial-iqtisadi islahatların dərinləşdirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunda daha yüksək əlavə dəyərin yaradılması və ixrac potensialının artırılması vəzifələri müvafiq sahələrdə struktur dəyişikliklərinin sürətləndirilməsini və dövlət idarəetmə strukturunun təkmilləşdirilməsini zəruri edir.

İqtisadi artım üçün əlverişli şəraitin yaradılmasına cavabdeh olan dövlət orqanlarının koordinasiyalı fəaliyyətinin təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi müvafiq dövlət xidmətləri statusunda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin strukturuna daxil edilsin.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin yeni strukturu təsdiq edilsin (əlavə olunur).

3. Müəyyən olunsun ki, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin strukturuna daxil olan dövlət orqanlarının və onların tabeliyində olan qurumların strukturu, işçilərinin say həddi, hüquqi vəziyyəti, vəzifə maaşları, əməyin ödənilməsi sistemi və xidmətkeçmə ilə bağlı hüquq və vəzifələri ilkin mərhələdə dəyişməz olaraq qalır.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Əsasnaməsinin yeni layihəsini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. barələrində nizamnamə kapitalındakı dövlət payının idarə edilməsi funksiyaları həyata keçiriləcək kommersiya təşkilatlarının siyahısını iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.3. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin strukturuna daxil olan dövlət orqanlarının yeni əsasnamələri təsdiq edilənədək onlar öz fəaliyyətlərini mövcud əsasnamələri əsasında davam etdirsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 oktyabr 2019-cu il*

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

### Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin strukturu

1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin aparatı (şöbələr və sektorlar).

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti.

4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti.

5. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin regional bölmələri.

6. Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndələrinin aparatları.

# Milli Məclisin Sədri Parlament Sədrlərinin Avropa Konfransında iştirak edəcək

Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyəti Parlament Sədrlərinin Avropa Konfransında iştirak etmək üçün oktyabrın 23-dən 25-dək Strasburqda səfərdə olacaq.

Parlamentin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətinin tərkibinə Milli Məclisin komitə sədri, AŞ PA-da nümayəndə heyətimizin rəhbəri Səməd Seyidov, deputatlardan Sahibə Qafarova, Xanlar Fətiyev, parlament aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildir.

Konfransda "Avropa ümumi evimiz: növbəti 70 il", "BMT-nin 2030 gündəminin və davamlı inkişaf məqsədlərinin həyata keçirilməsi: Parlamentlərin töhfəsi", "Qadın siyasətçilərə, millət vəkillərinə qarşı təzyiq və nifrət ifadələrinin artmasına qarşı milli parlamentlər hansı rol oynaya bilər?" mövzularında müzakirələr aparılacaq. Səfər çərçivəsində Milli Məclis Sədrinin konfransda iştirak edən nümayəndə heyətlərinin rəhbərləri ilə bir sıra görüşləri nəzərdə tutulub.

Konfrans çərçivəsində Parlament Baş katiblərinin iclası keçiriləcək. İclasda Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev iştirak edəcək.

# Milli Məclisin Səhiyyə komitəsinin iclası olub

Oktyabrın 23-də Milli Məclisin Səhiyyə Komitəsinin növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb.



Komitənin sədri Əhliman Əmiraslanov iclas iştirakçılarını salamlayaraq bu qanunun qəbul edilməsinin çox aktual məsələlərdən biri olduğunu bildirib. Komitə sədri qanun layihəsinin hazırlanması üçün parlamentin Səhiyyə komitəsinin sədr müavini Musa Quliyevin rəhbərliyi ilə işçi qrupun yaradıldığını, qanun layihəsinin hazırlanmış ilkin variantına dair dinləmələr keçirildiyini qeyd edib. Qanun layihəsinin indiki variantında müzakirələr zamanı səsləndirilmiş bir çox təkliflər nəzərə alınıb. Bu qanun ölkəmizdə insan orqanlarının və toxumalarının donorluğunun və onların transplantasiyasının hüquqi əsaslarını, donorların, resipiyentlərin, orqan transplantasiyası sahəsində fəaliyyət göstərən tibb müəssisələrinin və tibb işçilərinin hüquqlarını və vəzifələrini müəyyən edəcək, bu sahədə yaranan münasibətləri tənzimləyəcək.

Qanun layihəsinin birinci oxunuşu barədə məlumat verən Səhiyyə komitəsinin sədr müavini Musa Quliyev bildirib ki, transplantasiya tibbdə yeni sahə olsa da, çox sürətlə inkişaf edir. Xüsusilə son 50-60 ildə orqan transplantasiyası daha da aktuallaşıb. Təcrübə göstərir ki, insanlar transplantasiya olunmuş orqanlarla uzun illər yaşaya bilirlər.

Qeyd olunub ki, qanun layihəsi 5 fəsil, 36 maddədən ibarətdir. Layihədə insan orqanlarının donorluğu və onların transplantasiyasının təşkili və əlaqələndirilməsi, transplantasiya məqsədilə canlı donordan və meyitdən orqanların götürülməsi məsələləri öz əksini tapıb.

Müzakirələr zamanı çıxış edən komitə üzvləri İlham Məmmədov, Qənirə Paşayeva, Rafiq Məmmədhəsənov, Məlahət İbrahimqızı, Sədaqət Vəliyeva, Kamilə Əliyeva, Səhiyyə Nazirliyinin və müvafiq qurumların mütəxəssisləri qanun layihəsini yüksək qiymətləndiriblər, layihə barədə qeyd və təkliflərini bildiriblər.

İclasda Səhiyyə komitəsinin sədr müavini, İşçi qrupun rəhbəri Musa Quliyev səsləndirilən təkliflərə münasibət bildirib.

Müzakirələrdən sonra "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# Akademik Ramiz Mehdiyev Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti seçilib





Oktyabrın 23-də Azərbaycan Milli Elmlər Akademiyasının ümumi yığıncağında AMEA-nın prezidenti vəzifəsinə seçki keçirilib.

AZƏRTAC xəbər verir ki, səsvermədə AMEA-nın 55 həqiqi üzvü iştirak edib. Ümumi yığıncaqda hesablayıcı komissiya yaradılıb, komissiyanın sədri akademik Urxan Ələkbərov təyin olunub.

Gizli səsvermə yolu ilə keçirilən seçkidə akademik Ramiz Mehdiyev yekdilliklə AMEA-nın prezidenti seçilib.

AMEA-nın yeni prezidenti akademik Ramiz Mehdiyev çıxış edərək "Heydər Əliyev" ordeni ilə təltif olunduğuna görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib. Akademiyanın son illər mühüm nəticələr əldə etdiyini vurğulayan akademik AMEA alimlərini öz fəaliyyətlərində daha işgüzar və məsuliyyətlə çalışmağa, öhdələrinə düşən vəzifələri bundan sonra da layiqincə yerinə yetirməyə çağırıb.

Akademik Ramiz Mehdiyev seçkidə iştirak edən AMEA-nın həqiqi üzvlərinə minnətdarlıq edib.

# *Hikmət HACIYEV:* "Avropa İttifaqının tələsik bəyanatı həqiqəti əks etdirmir"

Bakının mərkəzində icazəsiz mitinq keçirmək cəhdi bəzi qruplar tərəfindən birtərəfli və təhrif olunmuş şəkildə təqdim edilib. Avropa İttifaqının bununla bağlı verdiyi tələsik bəyanat da həqiqəti əks etdirmir. Həddən artıq güc tətbiqi və onlarla insanın saxlanılması barədə bəyanatlar həqiqətə uyğun deyil.




AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Avropa İttifaqı məsələlərini işıqlandıran nüfuzlu "EurActiv" portalında dərc olunmuş məqaləsində bildirilir.

Hikmət Hacıyev qeyd edib ki, Azərbaycanda sərbəst toplaşma azadlığı tam şəkildə təmin olunub. Bakı Şəhər İcra Hakimiyyəti müxalif qrupun mitinq keçirmək müraciətinə cavab olaraq şəhərin Lökbatan ərazisini təklif etmişdi. Lakin sözügedən qrup bundan imtina etdi. Onlar Bakı metrosunun "28 May" stansiyası ərazisində razılaşdırılmamış mitinq keçirməyə cəhd etdilər. "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanuna əsasən metro stansiyaları ərazilərində kütləvi mitinqlər və nümayişlər keçirmək təhlükəsizlik məsələləri ilə əlaqədar qadağandır. Həmin qrupun oktyabrın 8-də Bakı Şəhər İcra Hakimiyyəti qarşısında piket keçirmək müraciəti də təmin olunmuşdu. Lakin onlar bunu hərəkətin sıx olduğu vaxtda mərkəzi küçədə mitinqə çevirməyə çalışdılar.

Oktyabrın 19-da keçirilən mitinqdə Azərbaycan polisinin peşəkar davrandığını qeyd edən Prezident Administrasiyasının rəsmisi saxlanılan şəxslərə xəbərdarlıq ediləndən sonra azad olunduqlarını bildirib. Heç kim xəsarət almayıb. Bəzi şəxslərin, o cümlədən Azərbaycan Xalq Cəbhəsi Partiyasının rəhbəri Əli Kərimlinin polis tərəfindən xəsarət almaları barədə bəyanatları yalandan başqa bir şey deyil.

Hikmət Hacıyev məqalədə Avropa ölkələrinin paytaxtlarında dinc nümayişlər zamanı rezin güllələrdən və itlərdən istifadə edilməklə həddən artıq güc tətbiq olunduğunu xatırladıb. O vurğulayıb ki, Bakıdakı aksiyanın əsl hədəfi həddən artıq dramatikləşdirilmiş teatr səhnəsi nümayiş etdirmək idi. Bu etirazın əsas məqsədi vəziyyəti dramatikləşdirmək və qurban obrazı yaratmaq idi. Onlar daxili və xarici ictimai dəstək əldə etmək istəyirdilər. Onların 90-cı illərin əvvəlində həyata keçirdikləri siyasət Azərbaycanı vətəndaş müharibəsi təhlükəsi ilə və müvəffəqiyyətsizliklə üz-üzə qoymuşdu. Anarxiya, küçə etirazları, populizm və demaqogiya onların istifadə etdikləri vasitələrdir.

Sonda Prezident Administrasiyasının rəsmisi vurğulayıb ki, Azərbaycan xalqı hakimiyyətin mənbəyidir və seçkilərdə iştirak edir. Demokratik və sabit inkişaf Azərbaycanın şüurlu seçimidir.

# Qoşulmama Hərəkatı daxilində iqtisadi əməkdaşlığın inkişafı son dərəcə vacibdir

Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Toplantısı çərçivəsində oktyabrın 23-də Bakıda nazirlərin hazırlıq görüşü keçirilib.







AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov XVIII Bakı Sammitinin Qoşulmama Hərəkatının daha bir uğur hekayəsi olacağına inam yaratdığını bildirib.

Nazir qeyd edib ki, Birləşmiş Millətlər Təşkilatından sonra ikinci ən böyük beynəlxalq siyasi təşkilat olaraq Qoşulmama Hərəkatı siyasi məsləhətləşmələr və praktik əməkdaşlıq üçün geniş və əhatəli bir platformanı təmin edir. Tarixboyu Qoşulmama Hərəkatı beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmlənməsində əsas rol oynayıb. Soyuq müharibənin sonu hərəkatımızın beynəlxalq münasibətlər sistemindəki rolunu azaltmayıb, əksinə, artan çağırışlar fonunda əhəmiyyətini artırıb. Bu gün qarşımızda duran əsas vəzifə yarandığı dövrdə olduğu kimi hələ də aktuallığını saxlayan Hərəkatın təməl prinsiplərini təbliğ etmək və dəstəkləməklə mövcud geosiyasi mənzərədəki yeni reallıqlara adekvat olması məqsədilə hərəkatın rolunu aktivləşdirməkdən ibarət olmalıdır.

Elmar Məmmədyarov qeyd edib ki, Azərbaycan Qoşulmama Hərəkatının sonuncu iştirakçısıdır, çünki o, 2011-ci ilin may ayında hərəkatın tamhüquqlu üzvü oldu. Cəmi 8 ildə Qoşulmama Hərəkatının tam etimadını qazanaraq ona sədrlik etmək imkanını əldə etdik. Azərbaycan müstəqil xarici siyasət yürüdür və heç bir hərbi ittifaqın üzvü deyil. Eyni zamanda, biz sürətlə inkişaf edən ölkəyik, davamlı inkişafa, demokratikləşməyə, insan hüquqlarına və sosial ədalətə hörməti artırmağa xüsusi əhəmiyyət veririk.

"Sədrliyimiz dövründə ən çox diqqət edəcəyimiz prioritet sahələrdən biri də gənclərin səlahiyyətlərinin artırılmasıdır. Uğurlu gənclər siyasəti cəmiyyətin davamlı inkişafının təmin olunmasında mühüm rol oynayır. Qoşulmama Hərəkatının Zirvə Toplantısı və Nazirlər Görüşü nəticəsində qəbul olunacaq sənədlər gənclərin dövlət idarəçiliyində iştirakının artırılması, onların sosial, təhsil və məşğulluq problemlərinin həlli, habelə Davamlı İnkişaf üzrə 2030 Gündəliyinin hədəflərinə çatmaqda gənclərin daha fəal iştirakı kimi gənclər siyasətinin müxtəlif aspektlərini əhatə edəcək. Bu sənədlərdə qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi üçün əməli tədbir olaraq Azərbaycan ilk dəfə Qoşulmama Hərəkatının Gənclər Sammitinin Bakıda keçirilməsi təşəbbüsü ilə çıxış edib. Gənclər Zirvəsi Qoşulmama Hərəkatına üzv dövlətlərdən 40 görkəmli gənci bir araya gətirəcək. İki gün davam edəcək müzakirələrin nəticəsi olaraq, onlar Qoşulmama Hərəkatının Dövlət və Hökumət başçılarının XVIII Zirvə Görüşünə tövsiyələr verəcəklər. Əminik ki, Gənclər Zirvəsi nəticəsində qurulacaq, qeyri-hökumət təşəbbüsü olan Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsi Qoşulmama Hərəkatının bütün fəaliyyətinə gənclərin dəyərli dəstəyini verəcək" deyə E.Məmmədyarov qeyd edib.

Nazir bildirib ki, Qoşulmama Hərəkatına üzv ölkələrin əksəriyyəti inkişaf etməkdə olan ölkələr olduğundan hərəkat daxilində iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi son dərəcə vacibdir. Bundan əlavə, enerji təhlükəsizliyi, ətraf mühit, səhiyyə, əmək kimi sahələrdə əməkdaşlığın təşviqi və bu məqsədlə Qoşulmama Hərəkatına üzv dövlətlərin maraqlarının BMT çərçivəsində təşviqi böyük əhəmiyyət kəsb edir.

Qeyd olunub ki, Azərbaycan Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri kimi regional iqtisadi layihələrdə və təşəbbüslərdə fəal iştirak edir və hazırda Cənub-Qərb nəqliyyat dəhlizi layihəsi üzərində işləyir. Qoşulmama Hərəkatına üzv ölkələrin bir çoxunun bu üç dəhliz boyunca coğrafi yerləşməsi hərəkat üzvləri arasında qarşılıqlı faydalı əməkdaşlığın daha da inkişafına kömək edə bilər.

Vurğulanıb ki, Azərbaycan dünya mədəniyyətlərarası və dinlərarası dialoq mərkəzlərindən biri hesab olunur. Bu sahədə zəngin və ən yaxşı təcrübəsi ilə Azərbaycan hərəkatımızın prioritet istiqamətlərindən olan mədəni müxtəlifliyin qorunması və təşviqi istiqamətində səylərini davam etdirməkdə qərarlıdır.

Çıxışında nazir Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə də toxunub. O deyib: "Təəssüf ki, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən davam edən işğalı regional və beynəlxalq təhlükəsizliyə ciddi hədə olmaqda davam edir və ölkəmizin davamlı inkişaf üçün bütün potensialından istifadə səylərini sarsıdır. Ermənistanla münaqişə Azərbaycan ərazisinin beşdəbirinin işğalı ilə nəticələndi və bir milyondan çox insan məcburi köçkün və qaçqına çevrildi. Münaqişənin ilk günündən bəri döyüş əməliyyatları mülki əhaliyə və infrastruktura təsir göstərməklə yalnız Azərbaycan ərazisi daxilində aparılıb. Qoşulmama Hərəkatının bütün üzv dövlətlərinə Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədləri daxilində ərazi bütövlüyünə davamlı dəstəyinə görə ən dərin təşəkkürümü bildirmək istəyirəm .

Elmar Məmmədyarov deyib ki, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi Bandunq Prinsiplərinin 65 illiyi (2020) və Qoşulmama Hərəkatının yaradılmasının 60 illiyi (2021) ilə üst-üstə düşəcək. Hər iki ildönümü Qoşulmama Hərəkatına üzv dövlətlərin bugünə qədər əldə edilən uğurları nəzərdən keçirmələrinə yaxşı təkan verəcək. Öz növbəmizdə biz hərəkatın təməl prinsiplərinin inkişafına töhfə vermək üçün əlimizdən gələni əsirgəməməyi öhdəmizə götürürük.

# Nümayəndə heyətimiz Çində kənd təsərrüfatı sərgisində iştirak edib

Çinin Şensi əyalətinin və Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) birgə təşkilatçılığı ilə Yanlin şəhərində kənd təsərrüfatı sahəsində yeni yüksək texnologiyalara həsr olunmuş sərgi keçirilib.



Artıq 26-cı dəfə keçirilən sərgi kənd təsərrüfatı sahəsində əldə edilmiş yeni nailiyyətlərin, xüsusilə yüksək texnologiyaların nümayişi, habelə təcrübə mübadiləsinin aparılması və yeni əməkdaşlıq əlaqələrinin qurulması üçün əlverişli platforma rolunu oynayır. Tədbirdə Kənd Təsərrüfatı nazirinin müavini Elçin Zeynalovun rəhbərliyi ilə nümayəndə heyəti iştirak edib.

E.Zeynalov sərgi çərçivəsində təşkil edilən "Şanxay Əməkdaşlıq Təşkilatının müasir kənd təsərrüfatının inkişafı üzrə dəyirmi masası" adlı tədbirdə çıxış edərək Azərbaycanın istər Çin, istərsə də ŞƏT ilə əməkdaşlıq əlaqələrinin inkişafına və gücləndirilməsinə verdiyi önəmi vurğulayıb, münasibətlərin hazırkı vəziyyəti, inkişaf perspektivləri barədə ətraflı məlumat verib.

Tədbirdə ŞƏT ailəsinin üzvü olan 14 ölkənin nümayəndəsi məruzələrlə çıxış edib, kənd təsərrüfatında müasir texnologiyalar, rəqəmsallaşdırma, əməkdaşlıq əlaqələrinin dərinləşdirilməsi və gücləndirilməsi, habelə bu sahədə kadr hazırlığı, məlumat mübadilə mərkəzlərinin yaradılması və digər məsələlərlə bağlı fikirlərini səsləndiriblər.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyət "Ağıllı kənd təsərrüfatı" adlı nümayiş zonasında sözügedən sahədə əldə edilmiş nailiyyətlərlə əyani tanış olub.

Tədbir iştirakçıları kənd təsərrüfatı texnologiyaları sahəsində beynəlxalq mübadilə və hazırlıq üzrə nümayiş mərkəzinin təməlqoyma mərasimində, həmçinin Müasir Kənd Təsərrüfatı Beynəlxalq Əməkdaşlıq Bazasının açılışında iştirak ediblər.

Ümumilikdə, tədbirdə ŞƏT-in üzvü, müşahidəçisi və "Dialoq üzrə tərəfdaş"ı olan dövlətlərin kənd təsərrüfatı nazirliklərinin rəhbər şəxsləri, eyni zamanda, Çində akkreditə olunmuş diplomatik nümayəndəliklərin təmsilçiləri, eləcə də Yaxın Şərq, Afrika və Avropanın bir neçə ölkəsinin və şirkətlərinin nümayəndələri iştirak ediblər.

*"Azərbaycan"*

# Gənclərin vətənpərvərlik tərbiyəsi diqqət mərkəzindədir

Tovuzda vətənpərvərlik hissləri olduqca güclüdür. Məhz bunun nəticəsidir ki, Dağlıq Qarabağ münaqişəsi başlayandan bu ərazilərdə yaşayan gənclər Vətən torpağını qorumaq üçün bütün qüvvələrini səfərbər ediblər.



Lakin Ermənistanla 69 kilometr həmsərhəd olan bu rayonda təhlükə sovuşmayıb. Düşmən öz mövqelərindən bu ərazidə yerləşən kəndlərimizi tez-tez atəşə tutur, əhalini qorxu altında saxlayır. Onlara layiqli cavab verən qüdrətli ordumuzun əsgərləri düşmənin bu təxribatlarının qarşısını alaraq sarsıdıcı zərbələr vururlar.

Müharibənin nə olduğunu yaxşı dərk edən tovuzlu gənclər işğal altında olan torpaqlarımızın azad edilməsini özlərinin vətəndaşlıq borcu hesab edirlər. Elə bu məqsədlə hər il onlarla gənc respublikamızın müxtəlif hərbi məktəblərinə daxil olmaqla bu peşənin sirlərini böyük həvəslə mənimsəyirlər. Təkcə son illər 636 nəfər tovuzlu gənc hərbi məktəblərə daxil olaraq Milli Orduda xidmət etmələri ilə qürur duyurlar. Cari ildə də belə məzunların sayında artım qeydə alınmışdır. Belə ki, 27 nəfər ali hərbi məktəbə, 8 nəfər isə hərbi liseyə daxil olmuşdur.

Bu barədə Tovuzda "Ümummilli Lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin gənclərin vətənpərvərlik tərbiyəsində rolu" mövzusunda təşkil edilən konfransda daha geniş söhbət açılmışdır. Tovuz Rayon İcra Hakimiyyətinin və respublika Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən konfransdan əvvəl iştirakçılar Heydər Əliyev adına meydanda Ulu Öndərin abidəsi önünə gül dəstələri qoyaraq dahi rəhbərə ehtiramlarını bildirmişlər. Tovuz Rayon Mədəniyyət Mərkəzində davam etdirilən tədbir Dövlət himninin səsləndirilməsi və "Ulu Öndər" sənədli filminin nümayişi ilə davam etdirilmişdir.

Konfransı giriş sözü ilə rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov açaraq diqqətə çatdırmışdır ki, Ümummilli Lider Heydər Əliyevin formalaşdırdığı gənclər siyasətinin məntiqi nəticəsidir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə gənclərin hərtərəfli inkişafı, onların ictimai-siyasi fəallığının artırılması üçün əlverişli şərait və möhkəm hüquqi baza yaradılmışdır. Hazırda gənclərimiz cəmiyyətimizin ən fəal qurucularına çevrilmişlər. Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyası gələcəyimiz olan gəncləri ölkəmizin inkişafında fəallıq göstərməyə səfərbər etmişdir. Bu gün gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi, onlarda vətənpərvərlik hisslərinin artırılması istiqamətində uğurlu göstəricilərə nail olunmuşdur.

Konfransda Gənclər və İdman nazirinin müavini İntiqam Babayev, Milli Məclisin deputatı Rafiq Məmmədhəsənov, Gənclər və İdman Nazirliyi yanında İctimai Şuranın sədri Nurəddin Mehdiyev və başqaları çıxış edərək dövlətçiliyimizin gələcəyinin etibarlı təminatının sağlam gənclik yetişdirməkdən asılı olduğunu qeyd etmiş, Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasının milli birlik yaratdığından və ölkənin inkişafında gənclərin rolundan danışmışlar. Qeyd etmişlər ki, bu gün gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi, onlarda vətənpərvərlik hisslərinin artırılması istiqamətində cəmiyyətin hər bir üzvünün üzərinə çox mühüm vəzifələr düşür.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Bakıda Qoşulmama Hərəkatının Fələstin üzrə Nazirlər Komitəsinin iclası olub

İclasda çıxış edən Xarici İşlər naziri Elmar Məmmədyarov Fələstin Dövlətinə artan beynəlxalq dəstəyin məmnunluq doğurduğunu bildirərək deyib:

"Fələstin xalqına sülh, sabitlik və dayanıqlı inkişaf uğrunda apardığı mübarizədə Azərbaycanın hərtərəfli dəstəyini bir daha bildirmək istərdim. Azərbaycan ardıcıl qaydada İsrail-Fələstin münaqişəsinin Fələstin Dövlətinin paytaxtı Şərqi Qüdsdə olmaqla, iki dövlət modelinə əsasən həllinin tərəfdarıdır. Bir neçə il əvvəl Azərbaycanda Fələstin Dövlətinə kömək məqsədilə İslam Maliyyə Təhlükəsizliyi Şəbəkəsinin təsis konfransı və Qüds şəhərinin inkişafına dəstək üzrə donor konfransı keçirildi. 2017-ci ilin iyul ayında Azərbaycanda Qüds məsələsinə dair BMT-nin Fələstin xalqının ayrılmaz hüquqlarının həyata keçirilməsi üzrə Komitəsi, BMT-nin Humanitar məsələlər üzrə Əlaqələndirmə Ofisi, İƏT və müxtəlif digər hökumət və vətəndaş cəmiyyəti təşkilatlarının iştirakı ilə beynəlxalq konfrans təşkil olundu. Konfrans Şərqi Qüdsün işğalı və Əl-Əqsa məscidində ibadət edən möminlərə qoyulan məhdudiyyətləri pisləyən bir bəyanat qəbul etdi. Bu gün də, həmişə olduğu kimi, Fələstin xalqının yanındayıq.

2018-ci ilin noyabr ayında Fələstin rəhbərliyinin xahişi ilə Azərbaycan Fələstin Dövlətinin Asiyadakı səfirlərinin konfransına evsahibliyi etdi".

2018-ci ilin aprelində Qoşulmama Hərəkatı (QH) Troykası qaydasında Azərbaycanda "Davamlı inkişaf üçün beynəlxalq sülh və təhlükəsizliyin təşviqi" adlı 18-ci Aralıq Nazirlər Toplantısı keçirildiyini xatırladan nazir bildirib ki, bu tədbir çərçivəsində QH Nazirlər Komitəsinin Fələstin üzrə iclası təşkil edildi. Yekun Bakı Bəyannaməsində pozuntulara tam son qoyulması üçün ciddi, kollektiv səy göstərməyə çağırışlar təkrarlandı.

"Azərbaycan Respublikası həmişə çətin günlərdə Fələstin xalqını dəstəkləyir və islam həmrəyliyinə sadiqdir. Bu dəstəyin bariz nümunəsi kimi, 2018-ci ilin oktyabr ayında BMT-nin Yaxın Şərqdəki Fələstin qaçqınları üçün yardım və iş Agentliyinə (UNRWA) 200 000 ABŞ dolları ayırmasıdır.

Biz, Azərbaycanda Fələstin xalqının əziyyətlərini yaxşı başa düşürük, çünki Azərbaycan xalqı da qonşu Ermənistan tərəfindən torpaqlarımızın işğalından əziyyət çəkir. Buna görə Fələstin xalqına dəstəyimiz qəlbdən gəlir", - deyə nazir vurğulayıb.

***AZƏRTAC***

# Azərbaycan Xarici İşlər Nazirliyində bir sıra görüşlər keçirilib

Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə Görüşü çərçivəsində İran İslam Respublikasının Xarici İşlər naziri Məhəmməd Cavad Zərif ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirlər iki dövlət arasında ümumi tarixi, dini, mədəni əlaqələrə əsaslanan dostluq və mehriban qonşuluq münasibətlərinin ikitərəfli əməkdaşlığın gündəliyində duran məsələləri üzrə fikir mübadiləsi aparıblar.

Nazirlər iki ölkənin dövlət başçıları arasında olan qarşılıqlı hörmət və etimadın Azərbaycan-İran münasibətləri üçün həlledici rol oynadığını söyləyiblər. Bu xüsusda iranlı nazir Azərbaycan tərəfinə qonaqpərvərliyə və Qoşulmama Hərəkatının Zirvə Görüşünü yüksək səviyyədə təşkil etdiyinə görə təşəkkürünü bildirib.

Söhbət əsnasında uğurla inkişaf edən regional əməkdaşlığın həm ikitərəfli, həm də çoxtərəfli formatlarının geniş perspektivlər açdığı qeyd edilib. Bu mənada bölgədə Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən nəhəng nəqliyyat dəhlizləri, o cümlədən dəmir yollarının gözəl fürsətlər yaratdığı vurğulanıb.

Görüşün sonunda nazir Məhəmməd Cavad Zərif Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyinə həsr olunmuş Xatirə kitabına öz ürək sözlərini yazıb.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran regional və qlobal məsələləri müzakirə ediblər.

* * *

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Bakıda keçirilən Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşü çərçivəsində İraq Respublikasının Xarici İşlər naziri Məhəmməd Əli Əlhakim ilə görüşüb.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan və İraq arasında mövcud olan ikitərəfli münasibətlərin hazırkı səviyyəsindən məmnunluq ifadə olunub. Həmçinin görüşdə, Azərbaycanla İraq arasında iqtisadi-ticari, o cümlədən sərmayələr, habelə humanitar və digər sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyindən bəhs edən nazirlər qarşılıqlı faydalı əlaqələrin hər iki xalqın mənafeləri naminə daha da inkişaf edəcəyinə dair əminliklərini bildiriblər.

İraq XİN-in başçısı Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyi dövründə ali dəyərlərin təbliğinin qlobal sülh və əmin-amanlığa xidmət edəcəyini ifadə edib və ölkəmizə sədrliyi dövründə uğurlar diləyib.

Görüşün sonunda Nazir Məhəmməd Əli Əlhakim Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyinə həsr olunmuş Xatirə kitabına ürək sözlərini yazıb.

* * *

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Bakıda keçirilən Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşü çərçivəsində Serbiya Respublikasının Baş Nazirinin birinci müavini, Xarici İşlər naziri İvitsa Daçiç ilə görüşüb.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tərəflər iki ölkə arasında beynəlxalq təşkilatlar çərçivəsində nümayiş etdirilən qarşılıqlı dəstəyin məmnunluq doğurduğunu bildiriblər. Bu xüsusda, nazir Elmar Məmmədyarov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunub, münaqişənin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipi əsasında tezliklə həllinə dair Serbiyanın prinsipial mövqeyinə görə minnətdarlığını ifadə edib.

Nazirlər iki ölkə arasında qarşılıqlı əməkdaşlığın müxtəlif istiqamətlərdə, xüsusilə də iqtisadi sahədə daha da inkişaf etdirilməsinin əhəmiyyətinə toxunublar. Azərbaycan ilə Serbiya arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın fəaliyyəti və biznes forumlarının təşkilinin ikitərəfli əməkdaşlığın zəngin potensialından daha səmərəli şəkildə faydalanmağa əlavə təkan verə biləcəyi vurğulanıb və bu istiqamətdə səylərin artırılacağına dair razılıq əldə olunub.

Nazir İ.Daçiç Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyinin uğurlu olacağına və ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da inkişaf edəcəyinə ümidvar olduğunu ifadə edib və nazir Elmar Məmmədyarovu öz ölkəsinə səfərə dəvət edib.

Görüş əsnasında, həmçinin qarşılıqlı maraq doğuran digər regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Bakıda keçirilən Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşü çərçivəsində Keniyanın Xarici İşlər nazirinin müavini Ababu Namvambanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qonağı salamlayan nazir Elmar Məmmədyarov iki ölkə arasında müqavilə-hüquq bazasının genişləndirilməsinin və qarşılıqlı yüksəksəviyyəli səfər mübadiləsinin həyata keçirilməsinin zəruriliyini bildirib.

Öz növbəsində, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi münasibətilə təbrik edən A.Namvamba sədrliyimiz dövründə Keniyanın ölkəmizin səylərini dəstəkləyəcəyini diqqətə çatdırıb.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında keniyalı diplomatı məlumatlandıran nazir Elmar Məmmədyarov BMT Təhlükəsizlik Şurasının münaqişənin həlli ilə bağlı qəbul etdiyi müvafiq qətnamələrin hələ də icra olunmadığını və beynəlxalq hüququn əsas prinsiplərinə bütün üzv dövlətlər tərəfindən hörmət olunmasının vacibliyini xüsusilə qeyd edib.

Tərəflər, həmçinin ikitərəfli münasibətlərin perspektivlərini, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərini müzakirə ediblər.

* * *

Xarici İşlər naziri Elmar Məmmədyarov Bakıda keçirilən Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşü çərçivəsində Cənubi Afrika Respublikasının (CAR) Beynəlxalq Əlaqələr və Əməkdaşlıq nazirinin müavini Elvin Bots ilə görüşüb.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tərəflər iki ölkə arasında mövcud olan əməkdaşlıq münasibətlərinin cari vəziyyətindən məmnunluq ifadə edərək iqtisadi, ticarət və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi perspektivlərini vurğulayıblar.

İki ölkədə qarşılıqlı qaydada fəaliyyət göstərən diplomatik nümayəndəliklərin Azərbaycan-CAR münasibətlərinin inkişafında və siyasi təmasların saxlanılmasında oynadığı vacib rolu qeyd edən həmsöhbətlər onların mövcud əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət edəcəyinə dair əminlik ifadə ediblər.

Qeyd olundu ki, həyata keçirilən qarşılıqlı ikitərəfli səfərlər və beynəlxalq forumlar çərçivəsində uğurlu əməkdaşlıq hər iki ölkənin mənafelərinə uyğun olaraq uğurla davam etdirilir. Bu mənada, nazir Elmar Məmmədyarov CAR-a etdiyi səfəri bu əməkdaşlığın bariz nümunəsi kimi xatırladıb.

Sonra Elmar Məmmədyarov Afrika İttifaqı ölkələri arasında CAR-ın Azərbaycan üçün əsas tərəfdaşlardan olduğunu məmnuniyyətlə qeyd edərək enerji və digər sahələrdə əməkdaşlığa əlavə təkan verilməsinin vacibliyini qeyd edib.

CAR rəsmisi, öz növbəsində, ticarət əlaqələrinin daha da fəallaşdırılmasının əhəmiyyətini vurğulayıb.

Nazir Elmar Məmmədyarov, həmçinin QH ilə G-77 arasında əlaqələndirilmiş fəaliyyətin əhəmiyyətinə diqqət yetirib.

Bununla yanaşı, tərəflər qarşılıqlı maraq doğuran digər qlobal və regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# İki xəbər agentliyi arasında əməkdaşlıq məsələləri müzakirə edilib

AZƏRTAC və Malayziyanın "Bernama" milli informasiya agentliyi arasında əməkdaşlıq əlaqələrinin inkişafı məsələləri müzakirə olunub.



Bakıda səfərdə olan "Bernama" agentliyinin beynəlxalq informasiya departamentinin redaktoru Racminakan Raviçandran AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov ilə görüşüb.

Danışıqlar ikitərəfli əməkdaşlıq, beynəlxalq informasiya təşkilatlarında qarşılıqlı əlaqə, müasir mediadakı trendlərin agentliklərin fəaliyyətinə təsirləri kimi mövzuları əhatə edib. İki agentlik əməkdaşlıq haqqında sazişi 2014-cü ildə Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində imzalayıblar. "Bernama" AZƏRTAC-ın hazırda sədri olduğu Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) İcraiyyə Komitəsinin üzvüdür. Bu agentliklərin OANA çərçivəsində əməkdaşlıq əlaqələri 2004-cü ildən başlayır.

Görüşdə, həmçinin multimedia məhsulları və xəbər istehsalı, sosial şəbəkələrin agentliklərin fəaliyyətinə təsiri məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, videoxəbər müasir dövrdə önəmli informasiya növü olmaqla sosial şəbəkələr vasitəsilə sürətlə yayılaraq böyük auditoriya toplayır. AZƏRTAC da bu sahəyə böyük diqqət ayırır. Multimedia məhsullarının istehsalına 2011-ci ildə başlayan agentlik hazırda öz veb-resursları və sosial şəbəkələr vasitəsilə 5 dildə videoxəbər yayır. "Bernama" agentliyi videoxəbər istehsalı və satışı hesabına yeni müştərilər cəlb etmək niyyətindədir. Racminakan Raviçandran AZƏRTAC-ın bu sahədəki təcrübəsi ilə maraqlanıb.

Danışıqlar zamanı oktyabrın 25-26-da Bakıda keçiriləcək Qoşulmama Hərəkatının Zirvə Görüşünün işıqlandırılması məsələləri də diqqət mərkəzində olub. Qeyd edilib ki, AZƏRTAC və "Bernama" bu önəmli tədbirdən xəbərlərin hazırlanması və yayılmasına ciddi hazırlaşıb.

Görüşdə Azərbaycanın Malayziyadakı səfirliyinin birinci katibi Rafiq Rüstəmov iştirak edib.

# İlham Əliyevin regional inkişaf siyasətinin növbəti uğuru

## 39 şəhər və rayon gələnilki dövlət büdcəsindən dotasiya almayaraq özünü tam maliyyələşdirəcək

*Əvvəli 1-ci səh.*

İnsan kapitalının inkişafı, əmək məhsuldarlığının artırılması üzrə tədbirlər də büdcə siyasətinin əsas istiqamətlərindən biri olaraq qalacaq. Bu əsasda, təhsil islahatlarının davam etdirilməsi, məktəbəqədər təhsilin maliyyə təminatı, habelə ali məktəblərə dövlət sifarişi əsasında tələbə qəbulunun daha da genişləndirilməsi məqsədilə müvafiq maliyyə təminatı ayrılacaq.

Xərc siyasətinin digər mühüm istiqaməti ərzaq təhlükəsizliyinin təmin edilməsi olacaqdır. Bununla əlaqədar, aqrar sektorun stimullaşdırılması, kənd təsərrüfatının aparıcı sahələrinin inkişaf etdirilməsi üçün müvafiq təşviq mexanizmləri formalaşdırılacaq, maliyyə dəstəyi və subsidiyalar ayrılacaq.

Gələn il nəqliyyat, kommunal infrastruktur, meliorasiya, sənaye və energetika, kənd təsərrüfatı kimi prioritet sahələrdə infrastruktur layihələrinin dəstəklənməsi, habelə, təhsil, səhiyyə, idman, mədəniyyət obyektlərinin, əlil və şəhid ailələri üçün evlərin tikintisi dövlət əsaslı vəsait qoyuluşunun prioritet istiqamətlərindən olacaq.



### Bölgələrin özünümaliyyələşdirmə prinsipləri əsasında yaşaması mümkündür

Hər il büdcə tərtib olunarkən qarşıya qoyulan ən əsas vəzifə büdcə xərclərinin səmərəliliyinin artırılması və optimallaşdırılmasıdır. Bu sırada artıq neçə illərdir ki, qarşıya qoyulan vəzifələrdən biri də şəhər və rayonların dövlət büdcəsindən maliyyələşməsinin azaldılması və tədricən dayandırılmasıdır. Fərəhli haldır ki, regional inkişaf proqramlarının icrasının və bütövlükdə ölkə iqtisadiyyatının inkişafının nəticəsi olaraq ötən illərdə bu istiqamətdə mühüm irəliləyiş baş verib.

Ötən illərdə büdcədən dotasiya alan rayonların sayının xeyli azalması göstərir ki, bütün bölgələrin özünümaliyyələşdirmə prinsipləri əsasında yaşaması mümkündür. Bunun üçün sadəcə hər bir şəhər və rayon özünün potensial imkanlarından düzgün yararlanmalıdır. Son illərdə bəzi rayonların təcrübəsində bunun nə qədər real olduğunu görmək olar. Məsələn, Prezident İlham Əliyevin təsdiq etdiyi dövlət proqramlarının uğurlu icrası və yerli imkanlardan səmərəli istifadənin nəticəsi olaraq Abşeron və İmişli kimi rayonlar neçə illərdir ki, dövlət büdcəsindən dotasiya almır. Qeyri-neft sektorunun inkişafı ilə əlaqədar olaraq bu rayonların iqtisadi imkanları artdıqca yerli gəlirləri də ilbəil çoxalıb və nəticə etibarilə onlar dövlət büdcəsinin vəsaitindən imtina edib.

Əgər bu rayonlar dotasiyadan imtina etməyə nail olublarsa, digər rayonların da öz hesabına yaşaması tamamilə mümkündür. Ələlxüsus, Azərbaycanın bütün rayonlarının özünə məxsus iqtisadi potensialı, təbii imkanları, ən əsası ölkədə əlverişli biznes mühiti var. Xərclərin optimallaşdırılmasının vacib olduğu indiki şəraitdə isə rayonlar buna daha tez nail olmalıdırlar.

Fərəhli haldır ki, gələn ilin dövlət büdcəsinin layihəsinə nəzər yetirdikdə dövlət büdcəsinin dotasiyasından imtina edən şəhər və rayonların sayının artdığını görürük. Bakı, Gəncə, Sumqayıt, Lənkəran, Şəki, Yevlax, Naftalan, Mingəçevir və Şirvan şəhərləri, Ağcabədi, Ağsu, Astara, Beyləqan, Cəlilabad, Daşkəsən, Göyçay, Göygöl, Hacıqabul, Xaçmaz, İsmayıllı, Kürdəmir, Qazax, Qəbələ, Şəmkir rayonları büdcədən maliyyələşməyəcək. Ümumilikdə gələn il 39 şəhər və rayon dövlət büdcəsindən maliyyə almadan özünü yerli gəlirlər hesabına təmin edəcək. Xatırladaq ki, 2019-cu ildə 35 şəhər və rayon büdcədən maliyyələşmir.

Təbii ki, regionların dövlət büdcəsi dotasiyasından tam azad olunması üçün zaman lazımdır. Amma vaxtilə yalnız Bakının dotasiya almadığını, gələn il isə öz yerli xərcləri hesabına maliyyələşən şəhər və rayonların sayının 39-a çatacağını nəzərə alsaq görərik ki, bu sahədə qarşıya qoyulan məqsədlərə nail olunur. Bunun da əsas səbəblərindən biri ölkədə həyata keçirilən düşünülmüş iqtisadi siyasətdir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Yeni təyinatlar yeni hədəflərə səmtlənir

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev söhbətində məmur vəzifəsinin, məmur kürsüsünün ucalığını yox, onun dövlət qarşısında məsuliyyət və ağırlığını diqqətə çatdırmışdır: "Bu, çox böyük vəzifədir, böyük etimaddır. Ümid edirəm ki, siz bu etimadı doğruldacaqsınız və yeni vəzifədə ölkəmizin iqtisadi inkişafının dayanıqlı olmasına öz töhfənizi verəcəksiniz".

Bu gün Azərbaycanın iqtisadi uğurları dünyanın ən mötəbər reytinq agentlikləri tərəfindən təsdiq edilir. Ölkə üzrə ÜDM istehsalı son 15 il ərzində üç dəfədən çox artmışdır. Neft gəlirlərinin qeyri-neft sektoruna uğurla yönəldilməsi, ölkə iqtisadiyyatının şaxələndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, biznes mühitinin səviyyəsinə görə dünyada 25-ci yeri tutması, 20 ən islahatçı ölkədən biri olması gərgin əməyin və dərin islahatların bəhrəsidir.

Dövlət başçısı Baş Nazirin müavini Şahin Mustafayevin diqqətini ona yönəltdi ki, əldə edilmiş bu uğurlarla kifayətlənmək olmaz, çünki iqtisadi sahədə həllini gözləyən problemlər hələ də var: "Xüsusilə, ölkə iqtisadiyyatının qeyri-neft sektoruna xarici sərmayənin cəlb edilməsi sahəsində hələ bir çox işlər görülməlidir. Düzdür, ölkə iqtisadiyyatına 270 milyard dollardan çox sərmayə qoyulubdur. Bunun yarısı xarici sərmayədir. Ancaq bu sərmayənin də əksəriyyəti neft-qaz sektoruna qoyulan sərmayədir. Bizim vəzifəmiz xarici investorları inandırmaqdır ki, ölkəmizin qeyri-neft sektoruna daha böyük həcmdə sərmayə qoysunlar. Eyni zamanda yerli şirkətlər üçün elə gözəl biznes iqlimi yaradılmalıdır ki, Azərbaycan şirkətləri ölkə iqtisadiyyatına böyük həvəslə sərmayə qoysunlar".

Başqa bir problemsə, əhalinin artımı ilə sosial-iqtisadi inkişafı uzlaşdırmaqdır. Müstəqilliyimizin əvvəlindən bugünədək ölkə əhalisinin sayı təxminən 3 milyon nəfər artmışdır. Bu artımın üstünlüyü və müsbət tərəfləri olduğu qədər də ölkə iqtisadiyyatına, o cümlədən infrastruktura və sosial infrastruktura böyük yük olmasını İlham Əliyev belə izah etmişdir: "Yeni məktəblər, yeni uşaq bağçaları tikilməlidir, yeni yollar çəkilməlidir. Yolların çəkilişi üçün vaxtilə qanunsuz tikilən binalarda yaşayan vətəndaşlar köçürülməlidir. Onlara dövlət tərəfindən kompensasiya verilir. Kompensasiya onları qane etməlidir. Yəni biz bir çox xərclərlə üzləşirik".

Dövlət başçısı sonra daha bir problemə - kölgə iqtisadiyyatına toxundu və tam açıqlığı ilə bildirdi ki, hələ kölgə iqtisadiyyatı bizim iqtisadiyyatımızın bir hissəsini təşkil edir: "Azərbaycanda kölgə iqtisadiyyatına qarşı mübarizə daha mütəşəkkil formada aparılır. Hesab edirəm ki, kölgədən çıxarılacaq biznes, əlbəttə, bizim iqtisadi göstəricilərimizi də düzəldəcək. Yəni göstəricilər reallığı əks etdirəcək. Eyni zamanda biznes dairələri bilməlidirlər ki, ölkədə vahid qanunlar, vahid qaydalar mövcuddur".

Prezidentin vahid qaydaların, vahid qanunların aliliyini bəyan etməsi mahiyyət etibarilə hər bir vətəndaşı, hər bir sahibkarı, hər bir dövlət məmurunu qara mühasibatçılıqdan əl götürməyə çağırış kimi qəbul edilə bilər. Əslində bu sözlərin mənəvi yükü daha çoxdur. Hər bir kəs vergisini ödəməli və qara mühasibatçılığın ölümə məhkum olunan dəhlizlərində dövlətin haqqını yeməli deyil.

Necə olur ki, alman, ingilis, ya da yapon dövlətin vergisini qəpiyinədək ödəməklə öyünür, bizdə isə kiçik sahibkarlıqla məşğul olan fiziki şəxs də, sahibkar da, gizlədilən gəliri bölməyə cəhd edən dövlət məmuru da ona əl uzatmağı adı hal sayırlar?! Bu səbəbdən dövlətçilik hisslərinin, vətəndaş mövqeyinin gücləndirilməsi üçün geniş müstəvidə ciddi maarifləndirilmə işi aparılmalıdır.

Prezident İlham Əliyevin Baş Nazirin yeni təyin olunan müavinini qəbul etməsi, onunla ətraflı söhbət etməsi, gələcək fəaliyyətini ona bənd-bənd izah etməsi və bu görüşün mətbuatda, telekanallarda yayımlanması onu göstərir ki, dövlət başçısı islahatlarda ən çətin addımları özü atır, ən vacib qərarları şəffaflıq şəraitində qəbul edir və ölkədə aparılan islahatların məqsəd və məramını geniş ictimaiyyətə çatdırır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# 650 min ağacın əkilməsi Abşeron yarımadasında ekologiyanın sağlamlaşması işinə böyük töhfə olacaq

Lap qədim zamanlardan körpü salmaq, su çəkmək kimi ağac əkmək də savab və xeyirxah bir iş sayılıb. Həmin savab və xeyirxah işlər kimi ağac əkmək, torpağa fidan basdırmaq hər kəsin ana torpağın sinəsinə qoyduğu imza, yaşıl avtoqrafdır. Bu, təkcə bizi yaşadan əməl deyil, bizi yedirən, içirən, böyüdən müqəddəs torpağın qarşısındakı vətəndaşlıq, övladlıq borcumuzdur.

Biz bu dünyaya qədəm qoyandan ağaclar bizim yol yoldaşlarımızdır. Gözümüzü dünyaya açanda taxta beşiklərdə laylamız çalınıb, ağacdan asılmış taxta yüyrüklərdə yellənə-yellənə böyümüşük, yaşadığımız bütün həyat boyu onun yetirib-bitirdiyi nemətlərlə ağzımız dada gəlib, qocalıb heydən düşəndə də ağacdan düzələn əsaya dirsəklənmişik. Bütün bunların qarşısında bir ağac, beş ağac əkmək nədir ki?

Bu barədə Bakı 2 nömrəli Tibb Kollecində Yeni Azərbaycan Partiyası ərazi təşkilatının sədri, həkim-pediatr Gülər Quluzadə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın dahi şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə bir gündə respublikamızda 650 min ağac əkmək təşəbbüsü ilə əlaqədar AZƏRTAC-a deyib. O, təşəbbüsü ekologiyanın qorunması sahəsində çox böyük addım hesab edərək bildirib: "Yaşıllıqları artırmağa hər zaman ehtiyac var, çünki zaman keçdikcə ağaclar qocalır, bu və ya digər səbəbdən ömrünü başa vurur, hətta bəzən insanlar tərəfindən qırılıb çatılır. Hələ bunun üstünə nə qədər ağac budağı sındırdığımızı, ocaq qalamaq, kabab bişirmək üçün manqallarda yandırıb külə çevirdiyimiz ağac budağını odun-ocağa çevirdiyimizi üstünə gəlsək, gör bizim təbiətə nə qədər borcumuz var?"

Ölkəmizdə ilk dəfə olaraq belə böyük miqyasda yaşıllaşdırma tədbirinin həyata keçirilməsini təbiətə, ətraf mühitə və ekologiyaya olan qayğı kimi dəyərləndirən ərazi təşkilatının sədri fikrini belə ifadə edib: "El arasında deyirlər ki, bir il yaşamaq istəyirsənsə, noxud, üç il yamaq istəyirsənsə, yonca, çox yaşamaq istəyirsənsə, ağac ək. Doğrudan da ağac əkməkdə çox böyük bir savab var. Düşünəndə ki, hər əkilən ağacın kölgəsində sabah neçə-neçə yolçu dayanıb nəfəs dərəcək, onun barlı budaqlarından bəhrələnəcək, onun necə xeyirxah bir əməl olduğu ortaya çıxır. Düşünəndə ki, illər keçəndən sonra hər əkilən ağac tikinti materialına, kağız istehsalı üçün xammala çevriləcək, yenə də onun ictimai əhəmiyyəti barədə danışmaq lazım gəlir. Ən nəhayət, düşünəndə ki, əkilən hər ağac özü ilə onun bağbanı, yetişdirəni, boya-başa çatdıranı haqqında gələcək nəsillərə soraq aparır, onda yenə də biz ona sabaha atılan imza, özümüzdən sonrakı yadigar kimi baxmalıyıq. Hansı yöndən, hansı tərəfdən baxsan, bu işdə çox böyük fayda, savab və xeyirxahlıq var.

Gülər Quluzadə fikrinə yekun vuraraq deyib: "Hesablamalara görə, 280 ağac 800 adamı oksigenlə təmin edir. Təkcə Abşeron yarımadasında, Bakı və ətraf bölgələrdə təqribən 4 milyona yaxın əhali yaşadığını nəzərə alsaq, onda onları oksigenlə təmin etmək üçün ağacların sayı 1 milyon 400 minə çatdırılmalıdır. Bu baxımdan bir gündə Azərbaycanda 650 min ağacın əkilməsi Abşeron yarımadasında ekologiyanın sağlamlaşması işinə böyük töhfə olacaq. Hamımız noyabrın axırında həyata keçiriləcək bu təşəbbüsə qoşulmaq üçün qol çırmayıb işə girişməliyik. Əminəm ki, təşəbbüsün həyata keçirilməsində heç kəs kənarda qalmayacaq və bu böyük yaşıllaşdırma tədbirinə öz töhfəsini verəcək".

# Kənd təsərrüfatına elmi yanaşma öz nəticəsini verir

## Bu yolla daha yüksək məhsuldarlığa nail olunur

*Əvvəli 1-ci səh.*

Bu məqsədlə dövlət öz vəsaiti hesabına xarici dövlətlərin ən yüksək kənd təsərrüfatı texnologiyaları və texnikaları alıb ölkəmizə gətirərək güzəştli şərtlərlə fermerlərə satır.

Prezident İlham Əliyev ölkənin sosial-iqtisadi inkişafında 6 aylığın nəticələri ilə bağlı keçirilən müşavirədə aqrar sektorda aparılan islahatların əhəmiyyətini qeyd edərək demişdir: "Kənd təsərrüfatında rekord göstərici əldə edilib. Kənd təsərrüfatı bu ilin altı ayında 13 faiz artmışdır, xüsusilə bitkiçilik hesabına. Bitkiçilik 25 faiz artmışdır. Yəni bu, onu göstərir ki, qoyulan investisiyalar, aparılan islahatlar, verilən subsidiyalar, kənd təsərrüfatına elmi yanaşma öz nəticəsini verməkdədir. Əminəm ki, gələcək illərdə kənd təsərrüfatı dayanıqlı şəkildə inkişaf edəcək və beləliklə, həm məşğulluğun, eyni zamanda kənd təsərrüfatı ixracının artmasına xidmət göstərəcək".

Qarşıya qoyulan əsas məqsədlərdən biri də daha məhsuldar sortların yetişdirilməsidir. Tərtər rayonundakı sort-sınaq məntəqəsində yunan texnologiyası əsasında pambıq yetişdirilir. 6 hektar sahədə becərilmiş pambıq sortları əsasən məhsuldarlığına, lif çıxımına, xəstəliklərə qarşı dözümlülüyünə, vegetasiya dövrünə görə bir-birindən fərqlənir. Üstün cəhətləri olan sortların həm yerli şəraitə uyğun becərilməsi, həm də bu sortlar əsasında yeni pambıq sortlarının yaradılması istiqamətində təcrübələr aparılır. Burada pambıq toxumçuluq məqsədilə becərilir. Araşdırmalar göstərir ki, texnoloji xəritəyə uyğun becərmə aparıldığı təqdirdə bu sortlar çox yüksək məhsuldarlığa malikdir.

Aqrar sektorla bağlı müxtəlif dövlət qurumları da fermerləri daha məhsuldar toxumlarla təmin etmək üçün mütəmadi tədbirlər görürlər. Xüsusilə Kənd Təsərrüfatı Nazirliyi "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nə uyğun olaraq toxum və ting bazarının tənzimlənməsini daim diqqətdə saxlayır. Toxum ticarət şəbəkəsinin yaradılması, rəqabət mühitinin formalaşdırılması, istehsalçı ilə istehlakçı arasında birbaşa münasibətlərin qurulması, toxumçuluqda yeni innovativ texnologiyaları tətbiq etməklə məhsuldarlığın artırılması, toxumçuluğun elmi əsaslarla inkişaf etdirilməsi, həmçinin fermerlərə sertifikatlı toxumun əlçatanlığının təmin edilməsi məqsədilə "Respublika toxum sərgi-satış" yarmarkası keçirilib.

Sərgiyə 50-dən çox özəl toxum istehsalı və satışı ilə məşğul olan şirkətin məhsulları çıxarılıb. Burada əsasən dənli (arpa, buğda), həmçinin tərəvəz bitki sortları və toxumları nümayiş etdirilib. Sərgi çərçivəsində fermerlərə sertifikatlı toxumun əldə olunması, sortların regionların torpaq-iqlim xüsusiyyətlərinə uyğun düzgün seçilməsi, toxumların təmizlənməsi, kondisiyaya çatdırılması barədə məlumatlar verilib və informasiya materialları təqdim olunub.



Toxumların səpin keyfiyyəti üzrə analizləri aparmaq üçün 12 regional toxum sertifikatlaşdırma mərkəzi (Quba, Bərdə, Göygöl, Qax, Salyan, Tovuz, Şamaxı, Şəki, Ucar, Lənkəran, Beyləqan və Sabirabad), eləcə də Respublika Toxum Sertifikatlaşdırma (Abşeron) Mərkəzi fermerlərin istifadəsinə verilib. Bu mərkəzlərin hamısı ölkədə toxumçuluğu inkişaf etdirmək üçün ən müasir cihaz və avadanlıqlarla təchiz olunub.

Onu da qeyd edək ki, Kənd Təsərrüfatı Nazirliyi toxumçu fermerlərə daim dəstək göstərir, toxum istehsalçılarına verilən subsidiya mexanizminin təkmilləşdirilməsinə, fermer və torpaq mülkiyyətçilərinə sertifikatlı toxumun əldə olunmasına kömək etməyə çalışır. Sərgi-satış yarmarkasının keçirilməsində hədəf payızlıq buğda və arpa səpininin optimal müddətdə başa çatdırılması üçün fermerlərə vaxtında sertifikatlı toxumun verilməsinə nail olmaqdır. Belə sərgilərin keçirilməsi toxum bazarının formalaşmasında da mühüm əhəmiyyətə malikdir.

***Rüstəm KAMAL,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Hesablama Palatası ECOSAI təşkilatının idarə heyətinə yenidən üzv seçilib

Hesablama Palatasının sədri Vüqar Gülməmmədovun rəhbərliyi ilə nümayəndə heyəti İstanbulda keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Ali Audit Qurumları Təşkilatının (ECOSAI) 8-ci Assambleyası, idarə heyətinin 24-cü və Təlim Komitəsinin 19-cu toplantısında və "Səmərəli audit və audit nəticələrinin effektivliyi" mövzusunda 8-ci simpoziumda iştirak edib.




Palatanın mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ECOSAI-ın və Türkiyə Hesablama Məhkəməsinin prezidenti Seyit Ahmet ali audit qurumlarının (AAQ) həyata keçirdiyi fəaliyyətlərin tarixindən və əhəmiyyətindən bəhs edib. Qəbul edilmiş gündəliyə əsasən Pakistan AAQ-ı tərəfindən ECOSAI-ın baş katibinin 3 illik fəaliyyət hesabatı və 2018-ci il dekabrın 31-nə ECOSAI-ın hesabları barədə məlumat təqdim edilib. Daha sonra təşkilatın Təlim Komitəsinin 19-cu toplantısının iştirakçılarının hesabatı, ECOSAI-ın xəbər bülleteninin nəşri haqqında baş katibliyin məlumatı dinlənilib, təşkilatın Ali Audit Qurumlarının Avropa Təşkilatında (ASOSAI) müşahidəçi qismində təmsil olunması barədə məlumat, üzv AAQ-lar arasında imzalanmış anlaşma memorandumları haqqında, eləcə də AAQ-ların ECOSAI-a müşahidəçi üzv qismində qəbul edilməsi məsələləri barədə müzakirələr aparılıb və ECOSAI-ın 2019-2022-ci illər üzrə Təlim Planı qəbul olunub.

Yekun olaraq, ECOSAI-ın idarə heyəti qeyd edilən hesabatların müzakirəsi və qəbul olunması üçün onların ECOSAI-ın 8-ci Assambleyasına çıxarılmasını qərara alıb.

ECOSAI-ın 8-ci Assambleyası və simpoziumunda açılış nitqi ilə çıxış edən ECOSAI-ın və Türkiyə Hesablama Məhkəməsinin prezidenti Seyit Ahmet Qətər, Küveyt və Belarus AAQ-larının budəfəki tədbirdə müşahidəçi statusunda iştirakını xüsusi vurğulayıb. Toplantının qəbul edilmiş gündəliyinə əsasən ECOSAI-ın Baş Katibinin maliyyə və fəaliyyət hesabatları dinlənilib. Bundan əlavə, ECOSAI-ın alt-qurumları təlim və audit komitələrinin hesabatları təqdim edilərək qəbul edilib. 8-ci Assambleyanın əsas nəticələrindən biri də ECOSAI-ın Nizamnaməsində müşahidəçi statusunda üzvlərin qəbulu ilə bağlı dəyişikliyin edilməsi olub. Tədbirdə, həmçinin ECOSAI təşkilatının özünün Asiya regionuna aid AAQ-ları birləşdirən ASOSAI-a müşahidəçi statusunda qəbul olunması elan edilib.

Assambleyada Hesablama Palatası yenidən ECOSAI-ın idarə heyətinə üzv seçilib. ECOSAI-ın növbəti assambleyasının isə 3 illik müddətə 2019-2022-ci illər üzrə bu təşkilatın prezidenti seçilmiş Qazaxıstan AAQ-ının təşkilatçılığı ilə Nur-Sultanda keçirilməsi nəzərdə tutulub.

Tədbirlər sırasında sonuncu olan simpoziumda Pakistan, Türkiyə, Belarus, Qazaxıstan, Küveyt AAQ-ları ilə yanaşı Atatürk Universitetinin və akademik dairələrinin digər təmsilçiləri çıxış edib və qarşılıqlı müzakirələr aparıblar.

# BMT Baş Assambleyasının prezidenti Azərbaycana səfərə gəlib

BMT Baş Assambleyasının prezidenti Ticani Məhəmməd-Bande Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşündə iştirak etmək üçün oktyabrın 23-də Azərbaycan Respublikasına səfərə gəlib.



AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağı Azərbaycan Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Azər Hüseyn və digər rəsmi şəxslər qarşılayıblar.

# ADA Universitetində keçirilən konfrans Lütfi Zadənin elmi irsinə həsr edilib



Oktyabrın 23-də ADA Universitetində "İnformasiya və kommunikasiya texnologiyalarının tətbiqi (AICT 2019)" mövzusunda 13-cü beynəlxalq konfrans öz işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev görkəmli alim Lütfi Zadənin elmi irsinə həsr olunan konfransın informasiya-kommunikasiya texnologiyalarının (İKT) beynəlxalq tətbiqi sahəsinə töhfə verəcəyini bildirib.

ADA-da fəaliyyət göstərən İnformasiya texnologiyaları və mühəndislik fakültəsi barədə məlumat verən rektor qeyd edib ki, universitetdə Lütfi Zadənin irsinə həsr olunan təqaüd proqramı təsis edilib. Bu təqaüd ADA Universitetində təhsil aldıqları müddət ərzində fakültənin akademik göstəricilərini yüksəkdə saxlamağı bacaran tələbələrə verilir. Diqqətə çatdırılıb ki, dünyanın 20-dən çox ölkəsinin alim və mütəxəssisləri konfransda bir araya gələrək İKT-nin elm, təhsil, biznes, sənaye, idarəetmə, tibb, sosial və humanitar sahələrdə tətbiqi ilə bağlı ən son yenilikləri bölüşəcək, müzakirə və təbliğ edəcəklər.

Daha sonra AMEA-nın vitse-prezidenti, AMEA İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev qeyd edib ki, builki AICT konfransının Azərbaycanda anadan olan, inanılmaz nailiyyətləri ilə bütün dünya ictimaiyyətinə xidmət edən və nəhayət, öz istəyinə görə vətəni Azərbaycanda dəfn olunan professor Lütfi Zadənin xatirəsi və elmi irsinə həsr olunması böyük şərəfdir. Qeyri-səlis texnologiyaların vətəni kimi tanınan Azərbaycanın gələcəkdə 4-cü sənaye inqilabı dövründə bütün "ağıllı" qurğular, intellektual kiber-fiziki sistemlər, Big Data analitikası və digər süni intellektə əsaslanan varlıqlar üçün lokomotiv olacağı danılmazdır. Akademik deyib: "Süni intellekt, Soft Computing və digər qeyri-səlis "ağıllı" texnologiyaların nəzəri əsaslarının inkişaf etdirilməsi və insan fəaliyyətinin müxtəlif sahələrində tətbiq edilməsi Azərbaycan elminin prioritet istiqamətlərindən biridir".

O, Prezident İlham Əliyev tərəfindən potensialın artırılması, postsənaye cəmiyyətinin müxtəlif sahələrində yüksək texnologiyaların tətbiqi və məlumatlandırma prosesinin sürətləndirilməsi üçün bir çox strateji layihələr, dövlət proqramları və konsepsiyalar qəbul edildiyini diqqətə çatdırıb.

ADA Universitetinin İnformasiya texnologiyaları və mühəndislik fakültəsinin dekanı Araz Yusubov XXI əsrin informasiya-kommunikasiya texnologiyaları əsri olduğunu vurğulayıb, qloballaşma dövründə İKT-nin böyük əhəmiyyətindən söz açıb. Araz Yusubov rəhbərlik etdiyi fakültədə bu sahədə ixtisaslaşmış kadrların hazırlandığını, beynəlxalq tədbirlərin təşkil olunduğunu diqqətə çatdırıb.

Qeyd edək ki, tədbir "Paşa Bank"ın baş sponsorluğu və Konvensiya Bürosunun dəstəyi ilə keçirilir.

"AICT 2019" konfransına ADA Universiteti, AMEA İnformasiya Texnologiyaları İnstitutu, Malayziya Sabah Universiteti, IEEE Azərbaycan şöbəsi və Elektrotexnika və Elektronika Mühəndislər İnstitutu texniki dəstək verir.

Təqdim olunan məruzələr İKT-nin tətbiqi ilə bağlı elmi-nəzəri yenilikləri, ən son texnologiyaları, standartları, məhsulları və layihələri əhatə edir.

Oktyabrın 24-dək davam edən "AICT 2019" konfransı çərçivəsində elmi məruzələrlə yanaşı, ustad dərsləri və nümayəndə heyətləri arasında işgüzar görüşlər təşkil olunacaq.

# Ankarada "Azərbaycan müstəqilliyə gedən yolda" mövzusunda konfrans

Azərbaycanın Dövlət Müstəqilliyi Günü münasibətilə Ankara şəhərində yerləşən Qazi Universitetində konfrans keçirilib.






AZƏRTAC xəbər verir ki, Azərbaycanın Ankaradakı səfirliyi, Türkiyə Elmlər Akademiyası və Qazi Universiteti tərəfindən təşkil olunan mərasimdə rəsmi şəxslər, səfirlər, deputatlar, görkəmli alimlər, həmçinin Qazi Universitetinin professor, müəllim və tələbə heyəti iştirak edib.

Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunandan sonra Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Əvvəlcə Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasından bu tərəfə olan dövlətçilik tariximiz barədə ümumi məlumat verilib.

Konfransda Azərbaycan Respublikası Prezidenti Katibliyinin rəisi-Prezidentin köməkçisi, tarix elmləri doktoru, professor Dilarə Seyidzadənin "Azərbaycan müstəqilliyə gedən yolda" mövzusunda məruzəsi dinlənilib.

Ümummilli Liderimizin xilaskarlıq missiyasından, zəngin mənalı ömür yolundan, yüksək insani keyfiyyətlərindən, böyük dövlətçilik təcrübəsindən, Ulu Öndərlə bağlı xatirələrindən, həmçinin dövlət müstəqilliyimizin qorunması və inkişaf strategiyasının müəyyən olunması istiqamətində tarixi fəaliyyətindən danışan professor Dilarə Seyidzadə "Yurdda sülh, cahanda sülh uğrunda" kitabından bəhs edərək bildirib ki, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin bu nəşrdə yer alan nitqlərinin əksəriyyəti Türkiyəyə həsr olunub. Ulu Öndər Heydər Əliyev "Yurdda sülh, cahanda sülh" ifadəsini tez-tez səsləndirməklə Türkiyə dövlətinin banisi böyük Mustafa Kamal Atatürkə tükənməz sayğısını ifadə edib.

Elmi fəaliyyətində görkəmli insanları araşdırdığını diqqətə çatdıran Dilarə Seyidzadə deyib ki, Heydər Əliyevin zəngin mənalı həyatına baxanda həmişə fəaliyyətləri haqqında tədqiqat apardığı dahi şəxsiyyətlər yadına düşüb. Əminliklə bildirib ki, Ulu Öndər Heydər Əliyevlə bağlı ən xırda məqamların belə qələmə alınması gələcəkdə Ümummilli Liderimizin irsini araşdıracaq tarixçilərin işinə böyük töhfə verəcək.

Azərbaycanın çar Rusiyasının tərkibinə qatılması, Xalq Cümhuriyyətimizin qurulması və süqutu prosesləri barədə müfəssəl məlumat verən məruzəçi cümhuriyyətimizin qəbul etdiyi demokratik qərarlar, o cümlədən qadınlara səsvermə hüququnun verilməsi məsələlərinə toxunub. Bildirib ki, ötən əsrin axırlarında dövlət müstəqilliyimizin bərpasından sonra ölkəmizin qarşılaşdığı çətinliklər, anarxiya və xaos Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti sayəsində aradan qalxıb, müstəqilliyimiz qorunub və hazırda dövlətimiz Prezident İlham Əliyevin rəhbərliyi ilə dinamik inkişafdadır.

Məruzəçi vurğulayıb ki, Ümummilli Lider doğma vətənini böyük məhəbbətlə sevdiyi üçün "Mən fəxr edirəm ki, azərbaycanlıyam!" ifadəsini söyləyəndə kövrək hisslər keçirib.

Professor Dilarə Seyidzadə diqqətə çatdırıb ki, müstəqilliyə aparan yol çox çətin olub. Bütün bunlara baxmayaraq, Ulu Öndər Heydər Əliyev xalqın iradəsinə söykənərək müstəqilliyimizin qorunmasını təmin edib. Azərbaycan tarixin heç bir dövründə indiki qədər müstəqil və güclü olmayıb.

Məruzəçidən əvvəl Türkiyə Elmlər Akademiyasının rəhbəri Müzəffər Şəkər, Qazi Universitetinin rektoru İbrahim Uslan, Türkiyə Ali Təhsil Şurasının sədr müavini Mehmet Şişman, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım, bu qrupun keçmiş rəhbəri Necdət Ünüvar, Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç, Azərbaycanın Ankaradakı səfirliyinin təhsil üzrə müşaviri Nəcibə Nəsibova və başqaları çıxış ediblər.

Çıxışlarda Ümummilli Lider Heydər Əliyevin xilaskarlıq missiyasından, dövlət müstəqilliyimizin qorunmasındakı xidmətlərindən, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan sosial-iqtisadi inkişafdan, Prezident Rəcəb Tayyib Ərdoğanın uğurlu siyasətindən, Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərindən danışılıb. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində ölkəmizin haqq işinin müdafiəsi ilə bağlı çağırışlar edilib, həmçinin Türkiyəyə qarşı irəli sürülən saxta "erməni soyqırımı" iddiasına qarşı mübarizədə hamı, xüsusilə də tələbə gənclər və alimlər daha fəal olmağa səsləniblər.

Çıxışlarda Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası əsasında həyata vəsiqə qazanan Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu, TANAP xəttinin tarixi əhəmiyyət daşıyan təsir güclərindən danışılıb, perspektivdə olan layihələrdən söz açılıb. Əminliklə qeyd olunub ki, Azərbaycan və Türkiyənin birgə inkişafı dövlətlərimizin təhlükəsizliyinin qarantıdır.

Vurğulanıb ki, Ümummilli Lider Heydər Əliyevin və Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün müdrik vəsiyyətləri hər bir azərbaycansevər və türkiyəsevər üçün örnəkdir.

Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç çıxışından sonra "Qarabağ Azərbaycandır!" şüarı həkk olunan portreti səhnədə nümayiş etdirib. Səfirin Azərbaycana həmrəylik olaraq söylədiyi "Qarabağ Türkiyədir!" ifadəsi hərarətli alqışlarla qarşılanıb.

Salonda Azərbaycan-Türkiyə qardaşlığına, vətənimizin bölünməzliyinə, Qarabağa dair şüarlar səsləndirilib.

Professor Dilarə Seyidzadə Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsinə həsr etdiyi "Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar" elmi əsərini iştirakçılara hədiyyə edib.

Sonda iştirakçılar universitetdə Xocalı soyqırımını əks etdirən rəsm sərgisi ilə tanış olublar.

## Mərkəzi Seçki Komissiyasında

# Mərkəzi Seçki Komissiyası sədrinin yeni müavini seçilib



Məzahir Pənahovun sədrliyi ilə oktyabrın 23-də Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə MSK sədri Məzahir Pənahov Rövzət Afət oğlu Qasımovun MSK üzvü təyin olunması ilə bağlı Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 22 oktyabr tarixli qərarını Komissiya üzvlərinin diqqətinə çatdırıb.

Sonra sədr Məzahir Pənahov Rövzət Qasımovun MSK sədrinin müavini vəzifəsinə seçilməsini təklif edib. Bildirib ki, R.Qasımov 22 ildir MSK-da işləyir, bu müddət ərzində Beynəlxalq əlaqələr şöbəsinin müdiri, sonradan Katibliyin müdiri vəzifəsinədək yüksəlib. Fəaliyyəti boyunca aidiyyəti dövlət qurumları, yerli və beynəlxalq təşkilatlar, eləcə də kütləvi informasiya vasitələri ilə sıx qarşılıqlı faydalı münasibətlər formalaşdıraraq daim peşəkarlıq nümayiş etdirib. Komissiyanın beynəlxalq əlaqələrinin qurulmasında və inkişaf etdirilməsində böyük rolu olub. Xarici ölkələrə səfərlərdə və qatıldığı bütün beynəlxalq tədbirlərdə ölkəmizi layiqincə təmsil edib.

Komissiya üzvləri R.Qasımovun sədr müavini vəzifəsinə seçilməsinə yekdilliklə səs verib və qərar qəbul edilib.

Kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdiyi iclasda, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər olunub və cari məsələlərə baxılıb.

### QƏRAR № 8/28

## Rövzət Afət oğlu Qasımovun Mərkəzi Seçki Komissiyası sədrinin müavini seçilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.2-ci, 19.3-cü, 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Rövzət Afət oğlu Qasımov Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası sədrinin müavini seçilsin.

***Sədr*** ***Məzahir Pənahov***
***Katib*** ***Arifə Muxtarova***
***Katib*** ***Mikayıl Rəhimov***

*23.10.2019-cu il*

### QƏRAR № 8/29

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Novruz Paşa oğlu Novruzov 3 saylı Babək-Kəngərli-Naxçıvan, Ramal Sahib oğlu Salmanov 4 saylı Naxçıvan şəhər, Ramil Xəlifə oğlu Mirəliyev 109 saylı Balakən seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.

2. Vüqar Yunis oğlu Şadlinski 93 saylı Bərdə şəhər, Sahib Nüsrət oğlu Əsgərov 109 saylı Balakən seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

***Sədr*** ***Məzahir Pənahov***
***Katib*** ***Arifə Muxtarova***
***Katib*** ***Mikayıl Rəhimov***

*23.10.2019-cu il*

# "Qazax" əlahiddə sərhəd diviziyasının xidməti ərazisində yeni hərbi hissə kompleksi istifadəyə verilib

















Azərbaycan Respublikasının Ermənistan ilə dövlət sərhədinin Qazax və Ağstafa rayonlarının ərazisindən keçən hissəsindəki təmas xəttində dövlət sərhədlərinin müdafiəsi və mühafizəsi infrastrukturunun yaradılması tədbirləri sürətlə davam edir. Sərhədçilər üçün ən müasir tələblərə cavab verən sərhəd döyüş məntəqələri, digər hərbi obyektlər qısa müddət ərzində tikilərək istifadəyə verilir.

Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən bildiriblər ki, oktyabrın 22-də Sərhəd Qoşunlarının "Qazax" əlahiddə sərhəd diviziyasının xidməti ərazisində yeni hərbi hissə kompleksi istifadəyə verilib.

Bu münasibətlə təşkil olunmuş təntənəli mərasimdə çıxış edən Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev Azərbaycan sərhədçisinin dövlətçiliyimizin və sərhədlərimizin keşiyində ayıq-sayıq dayandığını, DSX-nin bütün şəxsi heyəti üçün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırıqlarını icra etməyin böyük şərəf və məsuliyyət olduğunu bildirib, Ali Baş Komandanın qayğısı sayəsində Dövlət Sərhəd Xidmətinin bütün hərbi hissə və bölmələrində şəxsi heyət üçün yüksək xidməti və məişət şəraitinin yaradıldığını qeyd edib.

Ermənistan ilə dövlət sərhədinin Qazax və Ağstafa rayonları ərazisindən keçən hissəsinin Dövlət Sərhəd Xidməti tərəfindən mühafizəyə götürülməsinin dövlət sərhədlərinin bütövlüyünün təmin edilməsi istiqamətində mühüm addım olması xüsusi vurğulanıb, bu istiqamətdə sərhəd infrastrukturunun yaradılması üzrə həyata keçirilən genişmiqyaslı tikinti-inşaat və quruculuq işləri, o cümlədən düşmənin təxribatlarına baxmayaraq sərhəd döyüş mövqelərinin təkmilləşdirilməsi üzrə görülən işlər haqqında məlumat verilib, Azərbaycan sərhədçilərinin işğal altındakı torpaqlarımızın azad olunmasına öz ciddi töhfələrini verməyə hər zaman hazır olmaları bildirilib.

Tədbirdə iştirak edən Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev sərhədçiləri təbrik edərək onlara şərəfli xidmətlərində uğurlar arzulayıb.

Xidmətdə yüksək nəticələr göstərmiş bir qrup hərbi qulluqçu təltif olunub.

Çıxışlarda sərhədçilərin yerli əhali, ictimaiyyət nümayəndələri ilə əlaqələrinin möhkəm zəmin üzərində qurulmasının Vətənimizin hüdudlarının qorunması işində müsbət rol oynaması, icra hakimiyyəti, prokurorluq, dövlət təhlükəsizliyi və daxili işlər orqanları ilə sıx əməkdaşlığın, Müdafiə Nazirliyinin hərbi hissələri ilə qarşılıqlı fəaliyyətin dövlət sərhədlərimizin mühafizəsinin daha da gücləndirilməsinə xidmət etməsi qeyd olunub.

Sonra hərbi hissə kompleksinə baxış keçirilib. Bildirilib ki, hərbi hissədə xidmətin yüksək səviyyədə təşkili və sərhədçilərin istirahəti üçün hər cür şərait yaradılıb. Hərbi hissə kompleksində xidməti və yaşayış binaları, tibb məntəqəsi, idman zalı, təminat binaları, su rezervuarları inşa olunub.

Tədbirin sonunda Dövlət Sərhəd Xidmətinin rəhbər heyəti və qonaqlar şəxsi heyətlə birlikdə nahar ediblər.

Səfər çərçivəsində təmas xəttində yerləşən sərhəd döyüş məntəqələrində xidməti-döyüş fəaliyyətinin vəziyyəti yoxlanılıb.

***"Azərbaycan"***






# DÜNYA






*Beynəlxalq siyasət*

# Suriyada uzunmüddətli sabitlik naminə mühüm addım

## "Sülh bulağı" əməliyyatını davam etdirməyə ehtiyac qalmadı

**Türkiyə və Rusiya prezidentləri Rəcəb Tayyib Ərdoğan və Vladimir Putinin srağagün Soçidə apardıqları danışıqların yekunu olaraq əldə edilmiş razılaşmalar Suriyada vəziyyətin uzunmüddətli sabitləşdirilməsi istiqamətində atılmış mühüm addım kimi tarixə düşmüşdür. İki dövlət ərəb ölkəsində münaqişənin siyasi vasitələrlə tənzimlənməsi prosesinin qarantı kimi, bu dəfə də tarixi məsuliyyət nümayiş etdirərək hazırkı mərhələdə qarşıya çıxmış problemlərə həssas yanaşıb, həm Türkiyəni, həm Rusiyanı, həm də Dəməşqi qane edən sazişə gəldi.**



Əslində, Suriyada hadisələrin gələcək inkişafını müəyyənləşdirən proses Türkiyə Silahlı Qüvvələrinin oktyabrın 9-da Suriyanın şimal-şərqində "Sülh bulağı" antiterror əməliyyatının start götürməsi ilə başlamışdı. Əməliyyatın gedişində Türkiyənin təhlükəsizliyini təhdid edən YPG, İŞİD və digər terrorçu təşkilatları zərərsizləşdirib, Türkiyə-Suriya sərhədi boyunca terror dəhlizinin yaranmasının qarşısını almaq, terrorçulardan təmizlənən ərazidə təhlükəsizlik zonası yaradıb Türkiyədə məskunlaşmış suriyalı qaçqınların bir hissəsini orada yerləşdirmək planlaşdırılırdı. Təhlükəsizlik zonasını Türkiyə-Suriya sərhədinin 440 kilometri boyunca 30 kilometr dərinlikdə yaratmaq nəzərdə tutulurdu.

"Sülh bulağı" start götürdükdən doqquz gün sonra ABŞ vəziyyətə müdaxilə edərək antiterror əməliyyatını dayandırmaq üçün təşəbbüslə çıxış etdi. Oktyabrın 17-də ABŞ-ın vitse-prezidenti Mayk Pensin başçılıq etdiyi nümayəndə heyəti Ankarada Türkiyə rəhbərliyi ilə danışıqlar apararaq Suriyanın şimal-şərqində atəşi beş gün müddətinə dayandırmaq barədə sazişə gəldilər. Sazişə uyğun olaraq, terrorçular yaradılması nəzərdə tutulan təhlükəsizlik zonasından çıxarılacaq, onların ağır silahları yığılacaq, istehkamları və atəş mövqeləri yararsız hala gətiriləcək. Eyni zamanda ABŞ Suriyanın şimal-şərqində təhlükəsizlik zonasının yaradılması ideyasını qəbul etmiş, Suriyanın ərazi bütövlüyünün təmin olunmasını vacib saymışdır. Dünən həm Ankara, həm də Vaşinqton bəyan etmişdir ki, Türkiyə paytaxtında əldə olunmuş razılaşmalar yerinə yetirilmiş və beləliklə, "Sülh bulağı" əməliyyatının davam etdirilməsinə ehtiyac qalmamışdır.

Srağagün axşam Soçidə Suriyanın şimal-şərqində vəziyyətlə əlaqədar "Rusiya Federasiyası və Türkiyə Respublikası arasında qarşılıqlı anlaşma haqqında memorandum"un əldə edilməsi Türkiyə-ABŞ sazişini tamamladı, ərəb ölkəsinin sözügedən bölgəsində möhkəm sabitliyin bərqərar olmasına zəmin yaratdı. 10 maddədən ibarət memorandum istər Suriyanın gələcəyi, istərsə də Türkiyənin cənub sərhədinin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı prinsipial müddəaları ehtiva edir. Sənədin ilk maddəsində deyilir ki, Moskva və Ankara Suriyanın siyasi birliyinin və ərazi bütövlüyünün qorunub saxlanmasına, həmçinin Türkiyənin milli təhlükəsizliyinin təmin olunmasına sadiqliyini təsdiqləyir. Bu kontekstdə tərəflər terrorizmin bütün formaları ilə mübarizə aparmaq və Suriya ərazisində separatizm cəhdlərinin qarşısını almaq əzmindədirlər. Eyni zamanda Moskva və Ankara Türkiyə ilə Suriya arasında terrorizmlə mübarizə haqqında 1998-ci il tarixli Adana sazişinin əhəmiyyətini təsdiqləyir, Rusiya sazişin müasir şəraitdə həyata keçirilməsinə yardımçı olacaq. Yeri gəlmişkən, Adana sazişi Türkiyənin Suriya ərazisində terrorizmlə mübarizə aparmasına imkan verir.

"Sülh bulağı" əməliyyatının hazırda əhatə etdiyi rayona gəlincə, Təl-Əbyad və Rəəs əl-Eyn şəhərləri arasındakı 32 kilometr dərinliyinədək ərazidə status-kvo qorunub saxlanacaq. Başqa sözlə, Türkiyə Silahlı Qüvvələri oktyabrın 9-dan bəri tutduğu mövqelərdə qalacaq.

Memoranduma uyğun olaraq dünən Bakı vaxtilə saat 13.00-dan etibarən Rusiya hərbi polisinin və Suriya sərhəd xidməti bölmələrinin "Sülh bulağı" əməliyyatı zonasından kənarda Suriya-Türkiyə sərhədinin Suriya tərəfinə daxil olması nəzərdə tutulur. Rusiyalı hərbi polislər və suriyalı sərhədçilər 150 saat ərzində YPG terrorçularının silahları ilə birlikdə Suriya-Türkiyə sərhədindən 30 kilometr kənara çıxmasını təmin edəcəklər. Bundan sonra "Sülh bulağı" əməliyyatı rayonundan şərq və qərbdə (Qamışlı şəhəri istisna olmaqla) sərhəddən 10 kilometr dərinlikdə birgə Rusiya-Türkiyə patrulu fəaliyyətə başlayacaq.

Üstəlik, YPG-lilər silahları ilə birlikdə "Sülh bulağı" əməliyyatı rayonundan kənarda yerləşən Mənbic və Təl-Rifət şəhərlərindən çıxarılacaq. Moskva və Ankara terrorçuların təhlükəsizlik zonasına girməsinin qarşısını almaq üçün lazımi tədbirlər görəcək. Xatırladaq ki, "Sülh bulağı" əməliyyatı başlamazdan əvvəl Mənbic və Təl-Rifətə ABŞ hərbçilərinin dəstəyi ilə YPG nəzarət edirdi. Amerikalılar bu iki yaşayış məntəqəsindən çıxan kimi onların yerini rusiyalı hərbçilər və Suriya hökumət qoşunları tutmuşlar. Özü də Suriya münaqişəsi başlamazdan əvvəl əsasən ərəblərin yaşadığı Mənbic və Təl-Rifət etnik təmizləməyə və terrorçuların zülmünə məruz qalmışdır. Əvvəlcə İŞİD, sonra isə YPG sözügedən yaşayış məntəqələrində xeyli yerli sakini yurd-yuvalarından didərgin salmışdır. İndi onların ev-eşiklərinə qayıtması üçün imkan yaranır.

Rusiya-Türkiyə memorandumunda Türkiyədə məskunlaşmış suriyalı qaçqınların vətənə dönməsi məsələsi də əksini tapmışdır. Moskva və Ankara qaçqınların təhlükəsiz və könüllü şəkildə qayıtmasına kömək etmək üçün birgə səylər göstərəcək. Əldə olan məlumata görə, qaçqınların qayıdışını təmin etmək üçün ayrıca qurum yaradılacaq.

Türkiyə və Rusiya liderləri Soçi danışıqlarının gedişində Suriya münaqişəsinin siyasi vasitələrlə nizamlanması perspektivlərinə toxunmuşlar. Memorandumda deyilir ki, hər iki tərəf bu məqsədlə Astana platforması çərçivəsində problemin həlli yolunu axtarıb tapmağa çalışacaq, Suriya Konstitusiya Komitəsinin fəaliyyətini dəstəkləyəcək. Türkiyə Prezidenti məlumat vermişdir ki, ötən ayın 16-da Ankarada keçirilmiş Türkiyə-İran-Rusiya üçtərəfli sammitində yaradılmış Konstitusiya Komitəsi ilk iclasına cari ayın 30-da toplaşacaq. O, ümidvar olduğunu bildirmişdir ki, Konstitusiya Komitəsi suriyalıların ədalətli gözləntilərini nəzərə alaraq ölkədə hərtərəfli siyasi tənzimləmə prosesinə yol açacaq.

***Allahverdi MEHDİYEV, "Azərbaycan"***

*Seçki*

# İndoneziya Prezidenti yeni hökumətin tərkibini açıqladı

İndoneziya Prezidenti Coko Vidodo 34 nazirdən ibarət hökumətin tərkibini açıqlamışdır. Yeni Nazirlər Kabinetinin səlahiyyətləri 2024-cü ildə bitəcək. Bu barədə TRT telekanalı xəbər verir.



Məlumata görə, ötən prezident seçkilərində Vidodonun əsas rəqibi olmuş müxalifətçi "Gerindra" partiyasının sədri Prabovo Subianto Müdafiə naziri təyin edilmişdir.

Milli polisin rəisi Tito Karnavyan Daxili İşlər naziri, istefada olan general Fəxrul Razi Dini İşlər naziri, sahibkar, "Gojek" mobil əlavəsinin yaradıcısı Nadim Məkərim Təhsil və Mədəniyyət naziri təyin olunmuşlar.

Hökumətin tərkibinə 18 yeni nazir daxil edilmişdir. İndoneziyada ümumxalq seçkiləri aprelin 17-də keçirilmişdir. Ölkə vətəndaşları Prezidenti və ölkənin iki palatasının deputatlarını seçmişdilər. Ölkənin hazırkı Prezidenti Coko Vidodo seçkilərdə qələbə qazanmışdır.

*Sosial dəstək*

# Çili Prezidenti etirazlar fonunda sosial dəstək tədbirləri elan etdi

Çilidə ötən həftədən bəri davam edən etirazlar və iğtişaşlarla bağlı vəziyyəti tənzimləmək məqsədilə hökumət Konqresə (parlament) baxılmaq üçün bir sıra sosial dəstək tədbiri göndərəcək. Bu barədə ölkə Prezidenti Sebastyan Pinyera məlumat vermişdir.



Prezidentin dediyinə görə, tədbirlər paketinə pensiyaların artırılması, elektrik enerjisi tariflərinin aşağı salınması, müalicə xərclərinin qismən ödənilməsi, dərman qiymətlərinin azaldılması və təminatlı minimal gəlirin təyin olunması daxildir.

Bundan əlavə, hökumət parlamentə yüksək gəlirli şəxslər üçün vergilərin qaldırılması haqqında qanun layihəsi təqdim etməyi planlaşdırır. Pinyeranın dediyinə görə, bu tədbir büdcəyə vergi daxilolmalarını artırmağa və sosial proqramı maliyyələşdirməyə imkan verəcək.

Xatırladaq ki, iğtişaşlara və polislə toqquşmalara gətirib çıxarmış etirazlar oktyabrın 14-də, metroda gedişin qiyməti artırıldıqdan sonra paytaxt Santyaqoda başlamışdır. Sonradan iğtişaşlar ölkənin digər şəhərlərini də bürümüşdür.

Yaranmış vəziyyətlə əlaqədar Pinyera paytaxtda və bir sıra digər şəhərlərdə fövqəladə vəziyyət elan etmiş, habelə ictimai nəqliyyatda gediş qiymətlərinin artırılmasını ləğv edən qərar qəbul etmişdir.

Hökumətin məlumatına əsasən, iğtişaşlar zamanı 15 nəfər həlak olmuşdur.

*Kriminal*

# ABŞ-da Rusiya MOK-un sabiq vitse-prezidenti tutuldu

ABŞ-ın Florida ştatında Rusiya Milli Olimpiya Komitəsinin (MOK) sabiq vitse-prezidenti, "Şimali Qafqaz kurortları" şirkətinin keçmiş başçısı Əhməd Bilalov saxlanmışdır. Bu barədə "The Miami Herald" qəzeti xəbər verir.



Məlumata görə, Bilalovu ABŞ Daxili Təhlükəsizlik Nazirliyi yanında İmmiqrasiya və Gömrük Nəzarəti Xidməti saxlamışdır. Tutulmanın səbəbi hələ məlum deyil.

Bilalov həm də Krasnoyarsk diyarından Federasiya Şurasının sabiq üzvüdür. O, üçüncü və dördüncü çağırış Dövlət Dumasının deputatı olmuş, 2009-2013-cü illərdə Olimpiya Komitəsinin vitse-prezidenti vəzifəsində işləmişdir. Bilalovun başçılıq etdiyi "Şimali Qafqaz kurortları" şirkəti Soçi Olimpiadası üçün tramplindən tullanma kompleksinin inşasına cavabdeh idi. Tikinti işləri ləng getdiyinə görə əlavə vəsait cəlb edilmişdi.

2013-cü ilin əvvəllərində tikinti meydançasına gələn Rusiya Prezidenti Vladimir Putin şirkəti və Bilalovu tənqid etmişdi. Bundan sonra Bilalov şirkətdə, habelə Milli Olimpiya Komitəsində vəzifələrindən məhrum olmuş və Rusiyadan köçmüşdür.

Səlahiyyətlərindən sui-istifadə etdiyinə görə Bilalov barəsində cinayət işi qaldırılmışdır.

*Yeni əlifba*

# Qazaxıstanda əlifba ilə bağlı təkmilləşdirmə işləri aparılır

Qazaxıstanda qazax əlifbasının latın qrafikası əsasında təkmilləşdirilməsi istiqamətində işlər aparılır. Latın əlifbasına keçidlə bağlı yaradılan orfoqrafiya komissiyası bəzi hərflərin istifadəsində problemləri həll etməyə çalışır.

"Til-kazına" milli elmi-praktik mərkəzinin baş direktoru Askar Alibek bildirib ki, ölkənin regionlarında seminarlar, aprobasiya keçirilir. Yeni təqdim olunan əlifbada bəzi hərflərin istifadəsində problem daha dərindən öyrəniləcək və təkliflər veriləcək.

Qeyd edək ki, dövlət başçısı Kasım Jomart Tokayev iki il əvvəl qəbul edilən latın əlifbasındakı nöqsanların aradan qaldırılması üçün tapşırıq verib.



Xatırladaq ki, Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayev 2017-ci ilin oktyabrında kirildən latın əlifbasına keçidlə bağlı fərman imzalamışdı. 2018-ci ildən etibarən bütün kitabların, 2025-ci ildən isə bütün rəsmi dövlət sənədlərinin latın qrafikası ilə nəşrinə qərar verilib.

*Təbii fəlakət*

# İtaliyada dağıdıcı leysanlar



İtaliyada leysan yağışlarının törətdiyi daşqınlar və torpaq sürüşməsi nəticəsində azı iki nəfər həlak olmuşdur. Alessandriya əyalətinin Pyemonte dağlıq regionunda 130 nəfərdən çox adam təxliyə edilmişdir.

Kastelletto-d'Orbanın sakinləri gecəyarısı xaos və dağıntılar arasında yuxudan ayılmışlar. Rio-Albara çayı məcrasından çıxmış, su praktiki olaraq şəhəri basmışdır. Əlverişsiz hava şəraiti İtaliyanın şimalında yerləşən ən böyük şəhəri - Milanı da vurmuşdur. Şəhərin bəzi rayonlarını su basmış, Seveso çayı məcrasından çıxmışdır. Yanğınsöndürənlər və polis bütün gecəni fasiləsiz işləmişlər. Şəhərdə bir neçə yeraltı piyada keçidini su basmış və piyadaları xilas etmək lazım gəlmişdir. Liquriya vilayəti də xeyli zərər çəkmişdir. Ekstremal hava şəraiti üzündən Genuya və Savon şəhərlərində "qırmızı" təhlükə dərəcəsi elan edilmişdir. Regionda 20 min ev işıqsız qalmışdır. Torpaq sürüşməsi ehtimalı yüksəkdir.

*Cinayət*

# Osloda terrorçu təcili yardım maşınını qaçırdı

Norveçin paytaxtı Osloda silahlı şəxs təcili yardım avtomobilini qaçırdaraq bir neçə adamı vurmuşdur. Zərərçəkənlər arasında iki uşaq da var. Bu barədə "Anadolu" agentliyi xəbər verir.



Norveç polisinin əməkdaşları terrorçunu zərərsizləşdirmək üçün atəş açmışlar. Nəticədə cinayətkarı saxlamaq mümkün olmuşdur. O, yüngül yara almışdır. Terrorçunun hərəkətlərinin motivləri barədə hələ ki məlumat verilmir. Polis terror aktı cəhdi barədə mülahizələri şərh etməmişdir.

Hadisə nəticəsində zərərçəkənlərə müvafiq yardım göstərilir.

# İngiltərədə yük maşınında 39 meyit aşkar edilmişdir

İngiltərənin Esseks bölgəsindəki sənaye parkında yük maşınında 39 meyit aşkarlanmışdır.Yük maşınının sürücüsü, Şimali İrlandiyadan olan 25 yaşlı şəxs qətldə şübhəli bilinərək həbs olunmuşdur.

Nəqliyyat vasitəsinin Bolqarıstandan gəldiyi və ötən şənbə günü Uelsdəki Holihed rayonundan İngiltərəyə daxil olduğu güman edilir.

Yerli polis meyitlərin kimliyini müəyyənləşdirmək üçün təhqiqata başlamışdır.

*Terror*

# Yəməndə partlayışlar törədildi

Yəmənin Hodeydə və Təiz əyalətlərində qiyamçı hövsilər tərəfindən yolların kənarında yerləşdirilmiş minaların partlaması nəticəsində 13 nəfər həlak olmuşdur. Onlardan dördü hərbi qulluqçudur.



Qərb Sahili Birləşmiş Qüvvələrinin mətbuat katibi, polkovnik Vəddah Dəbiş bildirmişdir ki, Hodeydə və Təiz şəhərlərində hövsilərin yerləşdirdiyi bombalar partlamışdır. Onun dediyinə görə, 4 yəmənli hərbçi və 9 hövsi öldürülmüş, 3 hərbçi yaralanmışdır. Bu məsələyə dair hövsilərdən heç bir bəyanat daxil olmamışdır.

Bu arada BMT Hodeydədə atəşkəs barədə hökumətlə hövsilər arasında əldə olunmuş saziş çərçivəsində dördüncü müşahidə məntəqəsini formalaşdırmışdır. Hodeydənin şərqində, Aruda şəhərinin yaxınlığında yerləşən müşahidə məntəqəsi mürəkkəb şəraitdə formalaşdırılmışdır. Hövsilərin regionda təxminən 2500 mina yerləşdirməsi səbəbindən ekspertlərin fəaliyyəti ləng gedir.

Xatırladaq ki, ötən il dekabrın 6-13-də Yəmən münaqişəsinin tərəfləri İsveçin paytaxtı Stokholmda BMT-nin iştirakı ilə məşvərətçi iclas keçirmişlər. İclas zamanı Hodeydədə atəşkəs, habelə limanlar və Təiz şəhəri məsələsi barədə saziş imzalanmışdır.

*Erməni vəhşiliyi*

# 1970-ci illərdən bəri erməni terrorçuları 30-dan çox türkiyəli diplomatı qətlə yetiriblər

Ötən əsrin 70-ci illərində və sonradan erməni terror təşkilatlarının həyata keçirdiyi hücumlar nəticəsində 30-dan çox türkiyəli diplomat və onların yaxınları həlak olmuşlar. "Anadolu" agentliyinin xəbərinə görə, hücumların əksəriyyətini ASALA və JCAG erməni terror təşkilatları törətmişdir.

Ümumilikdə 1970-ci illərdən bugünədək 77 nəfər, o cümlədən Türkiyənin 58 vətəndaşı erməni terror təşkilatlarının qurbanı olmuş, çoxlu sayda adam yaralanmışdır.

Qarşısına terror vasitəsilə Türkiyənin maraqlarına ziyan vurmaq məqsədi qoymuş ASALA 1975-ci ildə yaranmışdır. Ermənilərin digər terror təşkilatı - JCAG 1975-ci ildə daşnaklar tərəfindən Beyrutda yaradılmışdır.

# İgidlər ölmür, itmir, Əbədiyaşardılar


**Fikrət Qoca**

*"İtkin oğullar" silsiləsindən Milli Qəhrəman Riad Əhmədova bu şeiri yazdım, verdim küləklər ona aparsın.*

İtkin qəhrəmanların
Hər yerdə öz payı var.
Onların öz günəşi,
Öz ulduzu, ayı var.
Riad Fikrət oğlunun
Döyüşən alayı var.
Onlar barışmayıbdı
Atəşkəslə, filanla, -
Barış adlı yalanla...
Onlar bizi hər zaman,
İzləyirlər, baxırlar.
Zülmət ayaq açanda
Şimşək olub çaxırlar.
Kəndlərimiz yananda
Yağış olub yağırlar.
Dağ seli olur hərdən,
Hərdən boz duman olur.
İtkin qəhrəmanlarım;
Yaşadan ümid olur,
Təntimiş güman olur,
İtkin qəhrəmanlarım.
Riad, Riad, ay Riad...
Salmışıq haray, Riad,
Səsimə ver hay Riad...
Qızlarının gözləri
Yerdən, göydən, dağlardan
Gəlməyini gözləyir,
Sevgilin, anan, bacın
Hər bir anı izləyir.
Yollarını gözləyir.
Hardasan, harda, Riad...
Nə yaman ləngidin sən
Qanlı yollarda, Riad?
Bilirəm, qəhrəmanım,
Bu döyüş bitməyincə
Geri dönən deyilsən.
Sən bu günsən, sabahsan,
Heç vaxt dünən deyilsən.
İtkin qəhrəmanlarım,
Allah qorusun sizi;
Sizi gözləyənlərin
Sevinsin könlü, gözü.
Ümid qaranlığına,
Güman qaranlığına,
İtkin qəhrəmanlarım,
Siz gətirin gündüzü,
Allah qorusun sizi.
Sən Milli Qəhrəmansan,
Sən ümidsən, inamsan
Şanlı, canlı əfsanə!
İtkin vətən torpağın
Sənə tapşırdıq, sənə!
Torpaqlar qayıdanda
Bilirəm gələcəksən!
Sən dünənsən, bu günsən
Sən ölməz gələcəksən!
O vaxt vətən deyəcək:
- Qəhrəman övladlarım!
Bunu da başardılar!
İgidlər ölmür, itmir,
Əbədiyaşardılar.

*28.07.2006*

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, oktyabrın 23-də Ağdam rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Mixail Olaru aparıblar.

# Muxtar respublikada ordu quruculuğu istiqamətində tədbirlər davam etdirilir

2019-cu ilin yanvar-sentyabr aylarında Naxçıvan şəhərində istirahət parkının tikintisi başa çatdırılıb, iki qərargah binasının, hərbi zavodun, mərkəzi hərbi xəstəxananın, əsgər yataqxanasının tikintisi hazırda davam etdirilir.






Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, Babək rayonunda iki əsgəri-məişət kompleksi, bir anqar istifadəyə verilib, iki qərargah binasının, iki anqarın, start komanda, yanacaqdoldurma, texniki qulluq, texnikaların yuyulması, texniki nəzarət, təmir və texniki xidmət məntəqələrinin, avtomobil saxlancının tikintisi davam etdirilir.

Culfa rayonunda Əlahiddə Ümumqoşun Ordunun yeni Səhra Təlim Mərkəzi istifadəyə verilib, retranslyasiya məntəqəsinin tikintisi davam etdirilir.

Şahbuz rayonunda üç anqarın, Sədərək rayonunda tabor mərkəzinin tikintisi davam etdirilir.

Kəngərli rayonunda hərbi hissədə zabit-gizir ailələri üçün 44 mənzilli yeni yaşayış binası istifadəyə verilib. "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının 15-ci Sərhəd zastavası üçün yeni xidmət və yaşayış kompleksi istifadəyə verilib.

Şərur rayonunda Daxili Qoşunların hərbi hissəsində infrastruktur obyektlərinin və 3 saylı Sərhəd dəstəsi binasının tikintisi davam etdirilir.

# Ermənistan ordusu pulemyotlardan və snayper tüfənglərindən istifadə etməklə atəşkəs rejimini 22 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Şavarşavan, Voskevan kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli, Aşağı Əskipara kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Pambıq qəbulu məntəqələrinə bugünədək 230 min tonadək məhsul təhvil verilib

Oktyabrın 23-dək ölkə üzrə pambıq qəbulu məntəqələrinə 229 min 595 ton məhsul təhvil verilib.

Dövlət Statistika Komitəsindən bildiriblər ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 45,2 faiz çoxdur. Keçən il oktyabrın 23-dək 158 min 83 ton pambıq tədarük olunmuşdu.

Qeyd edək ki, Azərbaycanda pambıqçılığın yeni inkişaf dövrü bu istiqamətdə əsaslı tədbirlərin görüldüyü, bu sahənin inkişafını nəzərdə tutan Dövlət Proqramının qəbul olunduğu 2016-cı ildən başlayıb. 2015-ci ildə pambıq əkini sahələri 18,7 min hektar, məhsul istehsalı 35,2 min ton təşkil edib. Həmin illə müqayisədə 2016-cı ildə əkin sahələri 2,7 dəfə artırılaraq 51,4 min hektara, pambıq istehsalı isə 2,5 dəfə artaraq 89,4 min tona çatdırılıb.

Azərbaycanın müstəqillik dövründə ən çox pambıq istehsalı 2018-ci ildə qeydə alınıb. Ötən il ölkə üzrə sahələrdən 230,4 min ton xam pambıq yığılıb. Bu, 2015-ci ilin göstəricisindən 6,54 dəfə çoxdur.

2018-ci ildə Azərbaycanda 132,5 min hektar sahədə pambıq əkilib, 2019-cu ildə pambıq əkini sahələrinin həcmi məhsuldarlığı az olan torpaqların əkin dövriyyəsindən çıxarılması hesabına 100,1 min hektaradək azaldılıb. Bu addım pambıqçılıqda orta məhsuldarlığı artırmağa, pambıq əkini dövriyyəsindən çıxarılmış torpaqları daha səmərəli istifadə etməyə imkan verəcək. AZƏRTAC respublikada pambıq tədarükünə dair oktyabrın 23-nə olan operativ məlumatı təqdim edir.

**23.10.2019-cu il tarixə pambıq tədarükünə dair operativ məlumat**

| Rayonlar | Əkin sahəsi, hektar | | | 23 oktyabr tarixə pambıq qəbulu məntəqələrinə təhvil verilmişdir, ton | | |
|---|---|---|---|---|---|---|
| | 2019-cu il | 2018-ci il | 2019-cu il 2018-ci ilə nisbətən | 2019-cu il | 2018-ci il | 2019-cu il 2018-ci ilə nisbətən |
| **Respublika üzrə cəmi** | **100111,7** | **132512,0** | **75,5%** | **229595,16** | **158083,25** | **145,2%** |
| Ağcabədi rayonu | 10452,3 | 10000,0 | 104,5% | 25283,80 | 16836,17 | 1,5 dəfə |
| Ağdam rayonu | 2600,0 | 3100,0 | 83,9% | 5747,95 | 3854,08 | 149,1% |
| Ağdaş rayonu | - | 3185,0 | - | - | 2802,87 | - |
| Ağsu rayonu | 1000,0 | 2600,0 | 38,5% | 745,00 | 1277,83 | 58,3% |
| Beyləqan rayonu | 9706,1 | 9560,0 | 101,5% | 21782,71 | 14597,05 | 149,2% |
| Bərdə rayonu | 10140,0 | 9630,0 | 105,3% | 25203,06 | 16400,24 | 1,5 dəfə |
| Biləsuvar rayonu | 10257,7 | 12000,0 | 85,5% | 22948,70 | 13583,59 | 1,7 dəfə |
| Cəlilabad rayonu | 507,7 | 505,0 | 100,5% | 799,91 | 731,82 | 109,3% |
| Füzuli rayonu | 800,0 | 2100,0 | 38,1% | 1281,86 | 1526,73 | 84,0% |
| Goranboy rayonu | 3102,2 | 5000,0 | 62,0% | 6340,30 | 5940,40 | 106,7% |
| Hacıqabul rayonu | 400,0 | 1300,0 | 30,8% | 431,86 | 768,15 | 56,2% |
| İmişli rayonu | 7492,3 | 13645,0 | 54,9% | 15027,92 | 11914,87 | 126,1% |
| Kürdəmir rayonu | 2809,2 | 5030,0 | 55,8% | 4984,04 | 4620,19 | 107,9% |
| Neftçala rayonu | 5087,0 | 7000,0 | 72,7% | 13092,79 | 7466,28 | 1,8 dəfə |
| Saatlı rayonu | 13741,0 | 15815,0 | 86,9% | 33759,69 | 21184,74 | 1,6 dəfə |
| Sabirabad rayonu | 8630,0 | 13055,0 | 66,1% | 19638,24 | 12317,28 | 1,6 dəfə |
| Salyan rayonu | 4788,2 | 7055,0 | 67,9% | 12231,50 | 7449,19 | 1,6 dəfə |
| Samux rayonu | - | 400,0 | - | - | 631,59 | - |
| Tərtər rayonu | 3427,2 | 3300,0 | 103,9% | 9991,41 | 5481,48 | 1,8 dəfə |
| Ucar rayonu | 500,0 | 2500,0 | 20,0% | 866,62 | 1128,99 | 76,8% |
| Yevlax şəhəri | 2406,8 | 2500,0 | 96,3% | 5013,72 | 4197,18 | 119,5% |
| Zərdab rayonu | 2264,0 | 3232,0 | 70,0% | 4424,08 | 3372,53 | 131,2% |

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**


## Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Məlumat Hesablama Mərkəzi *e-tender elan edir*

**LOT 1. "Sərgi avadanlıq və qurğularının dizayn, montaj və demontajı işlərinin satın alınması"**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Tenderdə mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilər.

**İştirak haqqı: Lot 1: 2000 AZN**

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**
**H/h: AZ31AZPO91015461200420100045**
**VÖEN: 9900037691**
**Bank: "Azərpoçt" MMC PF 1**
**Kodu: 691011**
**VÖEN:9900037711**
**M/h:AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri)
Asəf Məmmədov
Təsərrüfat və təchizat şöbəsinin müdiri
m.asef@rabita.az
012 565 14 65

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **13.11.2019-cu il saat 11:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **21.11.2019-cu il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **12.11.2019-cu il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

*"Dövlət satınalmaları haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunlarına uyğun olaraq, İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu əməkdaşlarının tibbi sığortalanması xidmətinin satın alınması üçün sığorta şirkətinin seçilməsi üzrə* ***kotirovka sorğusu elan edir***

İddiaçılar satınalma prosedurunun predmetinə dair hazırlanmış əsas şərtlər toplusunu İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondundan əldə edə bilərlər.
Təkliflər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.
Təkliflər 28 oktyabr 2019-cu il saat 15:00-a qədər qəbul olunur. Əlaqələndirici şəxs: Əyyub Abdullayev.
**Ünvan: Bakı şəhəri, Yasamal rayonu, A.M.Şərifzadə küçəsi, 172.**
**Telefon: (012) 310-23-01 Fax: (012) 432-37-17 e-mail: info@edf.gov.az**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

15 oktyabr 2019-cu il tarixdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəftərxana mallarının satın alınması üçün keçirilən kotirovka sorğusunda fiziki şəxs İlham Valeh oğlu Quliyev qalib olmuş və 21 oktyabr 2019-cu ildə satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən "Azərbaycan" qəzetinin 17 iyul 2019-cu il və 03 avqust 2019-cu il tarixlərində dərc edilmiş elanlarla əlaqədar bildiririk ki, 20 avqust 2019-cu il tarixdə keçirilmiş açıq tender sorğusu metodu ilə Peşəyönümü məsləhət xidmətlərinin satın alınmasına dair tender komissiyasının qərarı ilə müsabiqənin qalibi "BİZLİNKZ" MMC elan olunmuş və 14 oktyabr 2019-cu il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 04 noyabr 2019-cu il saat 1600-da keçirilməsi nəzərdə tutulan "Əlamətdar günlərlə bağlı hədiyyələrin alınması, dizayn xidmətləri, çap və videoçarxların çəkilməsi işlərinin satın alınması" üzrə Açıq Tenderin vaxtı 20 noyabr 2019-cu il saat 16:00-a keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 08 noyabr 2019-cu il saat 16:00-a qədər, tender təklifi və bank təminatını isə 19 noyabr 2019-cu il saat 16:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

***Tender komissiyası***

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi AHİK-in katibi-aparat rəhbəri Həsən Cəfərova dayısı

**SƏYYAF MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sumqayıt Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Sumqayıt Şəhər Məhkəməsinin hakimi Fikrət Əliyevə atası

**HÜSEYN MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 8959**
**Sifariş 3539**
**Qiymət 40 qəpik**